

Əhməd Əl Şaraa Bakıya dəvət edildi

SƏHİFƏ 2-də

Uşaqlar arasında kütləvi virus yayılıb?

SƏHİFƏ 14-də

Rəngli dağlar, insansız küçələr

SƏHİFƏ 11-də

Tarix, din və təbiət

SƏHİFƏ 15-də

Böyük liqalarda gərgin mübarizə

SƏHİFƏ 16-da

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

12 APREL ŞƏNBƏ 2025 I № 13 (4214) Qiyməti - 60 qəpik www.kaspi.az

XARİCİ SİYASƏTİN KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏSİ

Rəsmi Bakının 2020-ci ildə əldə etdiyi hərbi qələbədən sonra sahibləndiyi orta güc statusu hesabına Yaxın Şərq-Cənubi Qafqaz-Türk dünyası vektoru üzrə nüfuz dairəsini genişləndirməsi hamı tərəfindən qəbul edilən geosiyasi reallıqdır.

SƏHİFƏ 4-də

NEFT BAZARINDA NARAHATLIQ YARADAN DALĞALANMA

Tramp administrasiyasının tarif qərarlarından sonra dünya bazarlarında neft qiymətində kəskin eniş müşahidə edilir. Bu, Azərbaycana da təsirsiz ötüşmür. Hətta büdcəyə yenidən baxılma zərurəti də yarana bilər.

SƏHİFƏ 6-da

TEXNOLOJİ İNKİŞAF ONLARI DA “İŞSİZ” QOYDU

Atların və eşşəklərin sayında azalma müşahidə edilir. Bu məsələdə ekspertlərin fərqli fikirləri mövcuddur. Kimisi azalmanı normal qəbul edir, kimisi isə onları qorumalı olduğumuzu bildirir.

SƏHİFƏ 13-də

“BİZ QLOBAL MƏSƏLƏLƏRDƏ ÖZ SÖZÜMÜZÜ DEMƏLİYİK”

YENİ DÜNYA NİZAMINA DOĞRU

Prezident İlham Əliyev Forumda Cənubi Qafqazın inteqrasiya imkanlarından danışıb. ABŞ-nin yeni administrasiyası ilə əməkdaşlıq perspektivlərini dəyərləndirib.

ANTİ-AZƏRBAYCAN TRENDİ DAYANDIRILIB

Dövlət başçısı bildirib ki, Donald Trampın prezidentlik fəaliyyəti başlayandan ABŞ siyasətində anti-Azərbaycan trendi dayandırıldı və bu, artıq müsbət məqamdır: “İkincisi, artıq Tramp administrasiyasının üzvləri ilə Azərbaycan nümayəndə heyəti arasında müxtəlif səviyyələrdə yüksəksəviyyəli təmaslar baş tutub, gündəlik çox səmərəli və qarşılıqlı şəkildə məqbul olub”.

TÜRK DÜNYASI İLƏ ƏLAQƏLƏR PRİORİTETDİR

Prezident İlham Əliyev Azərbaycanın Türk dünyası ilə əlaqələrini də xüsusi vurğulayıb, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıqdan danışıb. Bildirib ki, Türk dünyasında ölkələr arasında münasibətlər bizim üçün çox vacibdir: “Bizim üçün bu, xarici siyasətimizin əsas prioritetlərindən biridir”.

SƏHİFƏ 3-də

“PENN STATE”İN AZƏRBAYCANLI DAHİSİ

17 yaşında ABŞ-li professoru riyazi bilikləri ilə təəccübləndirib. Amma o, bu istedadını 15 yaşında dərk edib. Riyazi bilikləri ilə yaşıdlarından seçilsə də, uzun müddət bunun fərqində olmayıb. Ta ki, onu müəllimi kəşf edib 10-cu sinifdə riyaziyyat olimpiadasına göndərənə qədər...

SƏHİFƏ 12-də

Məhz o olimpiadadan sonra karyera yolunu da seçib, bu yolla uşaqlıq arzusunu da reallaşdırıb, hətta ABŞ-li professoru da təəccübləndirməyi bacarıb. Müsahibimiz Pensilvaniya Dövlət Universitetinin 2-ci kurs tələbəsi Nihad Həsəndir. O, bu universitetdə kompüter elmləri ixtisası üzrə təhsil alır.

ANTALYA DİPLOMATİYA FORUMU BAŞLAYIB

Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

SƏHİFƏ 2-də

TRAMPIN TARİFLƏRİ ALMANİYANI ÇÖKDÜRÜR

Yeni tariflərin tətbiqindən sonra Avropanın fövqəldövləti ciddi sınaqlarla üz-üzədir. Hesablamalara görə, Almaniyadan ABŞ-yə ixrac təxminən 15% azalacaq və nəticədə ölkə iqtisadiyyatında son illərdə ilk dəfə resessiya baş verəcək.

SƏHİFƏ 5-də

RƏQİBLƏRİNƏ QALİB GƏLƏN İNGİLİS KÜRƏKƏN

“Kaspi” qəzetinin “Ailə” rubrikasının budəfəki qonaqları ingilis Daniel və azərbaycanlı Günaydır. İki övladdan sonra da onların bir-birinə olan münasibəti elə ilk tanış olduqları gündə olduğu kimidir.

SƏHİFƏ 8-9-da

“YAŞIL” VƏ “QIRMIZI” XƏTLƏR AYRILIR

METROPOLİTENDƏ YENİ DÖNƏM BAŞLAYIR

Bakı metropolitenində sərnişin axınının tənzimlənməsi, qatarların hərəkət intervalının optimallaşdırılması və ümumi xidmət keyfiyyətinin artırılması məqsədilə xətlərin ayrılması istiqamətində kompleks tədbirlərə başlanılıb.

Dəyişikliklərdən sonra “Dərnəgül” istiqamətindən gələn sərnişinlər “Nizami” stansiyasında metronu tərk edərək “qırmızı” xəttə keçmək üçün alternativ ictimai nəqliyyatdan istifadə etməli olacaqlar.

SƏHİFƏ 10-da

Antalyada Türkiyə-Azərbaycan müzakirələri

Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib. Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib. Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Əhməd Əl Şaraa Bakıya dəvət edildi

Prezident İlham Əliyevin aprelin 11-də Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub. Prezident İlham Əliyev Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik edib.

Dövlət başçısı deyib ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib.

Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd edib. Görüşdə, eyni zamanda, Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunulub.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət edib.

ANTALYA DİPLOMATİYA FORUMU BAŞLAYIB

Azərbaycan Prezidentinin müxtəlif səviyyəli beynəlxalq forumlara xüsusi qonaq qismində dəvət edilməsi, iştirakı artıq ənənə halını alıb. Xüsusilə 2020-ci ildə işğal faktına son qoyaraq ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə nəticələnən qələbə dövlətimizin beynəlxalq nüfuzunu daha da artırıb.

Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə əvvəlcə Türkiyənin xarici işlər naziri Hakan Fidan giriş nitqi ilə çıxış edib. O, Forumun əhəmiyyətini vurğulayıb, tədbirdə çox nüfuzlu qonaqların iştirak etdiyini deyib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Türkiyə dövlətinin başçısı hazırda dünyada mövcud olan problemlərin müzakirəsinin vacibliyini vurğulayaraq, bu baxımdan Forumun roluna toxunub.

Qeyd edək ki, qlobal çağırışlarla bağlı müzakirələrin aparılması, onların həlli yollarının tapılması kimi məsələlərdə dünyanın aparıcı platformalarından biri olan Antalya Diplomatiya Forumunda 20-dən çox dövlət və hökumət başçısı, 70-dən artıq nazir olmaqla, ümumilikdə 140 ölkədən 450-dək yüksəksəviyyəli nümayəndə iştirak edir.

Forum çərçivəsində müxtəlif formatlarda keçiriləcək 50-dən artıq tədbirdə Yaxın Şərqdən Asiya və Sakit okean hövzəsinə, Afrikadan Latın Amerikasına qədər geniş coğrafiyada qlobal çağırış və təhdidlərlə yanaşı, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, süni intellekt kimi dünya gündəmində mühüm yer tutan məsələlər ətrafında müzakirələr aparılacaq.

UZAQGÖRƏN, PRAQMATİK VƏ ARDICIL SİYASƏT

Qeyd edək ki, Azərbaycan Prezidentinin müxtəlif səviyyəli beynəlxalq forumlara xüsusi qonaq qismində dəvət edilməsi, iştirakı artıq ənənə halını alıb. Xüsusilə 2020-ci ildə işğal faktına son qoyaraq ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə nəticələnən qələbə dövlətimizin beynəlxalq nüfuzunu daha da artırıb. Bu illər ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən, praqmatik və ardıcıl siyasət nəticəsində Azərbaycan son illərdə regionda və dünyada mühüm siyasi, iqtisadi və humanitar mərkəzlərdən birinə çevrilib. Artıq Azərbaycan tək regional yox, həm də beynəlxalq miqyaslı proseslərə təsir göstərən önəmli aktor rolunu oynayır. Bunu Prezident İlham Əliyevin Antalya Forumu çərçivəsində keçirdiyi görüşlərə diqqət yetirdikdə də görmək mümkündür. Qalib dövlət olaraq ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin və beynəlxalq təşkilatların sayı durmadan artır.

ETİBARLI TƏRƏFDAŞ VƏ TƏŞƏBBÜSKAR DÖVLƏT

Xatırladaq ki, son bir neçə ildə Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət Görüşündə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Görüşündə, Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərində, Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində, SPECA – Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi BMT Proqramının Zirvə Görüşündə, Davos Dünya İqtisadi Forumunda iştirak edib. Bu tədbirlərin hər biri özünün miqyası və çəkisinə görə dünyanın ən mühüm platformaları sayılır. Türkiyənin Antalya şəhərində keçirilən IV Antalya Diplomatiya Forumu da istisna deyil. Prezident İlham Əliyevin bu forumda iştirakı bir daha göstərir ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir.

YENİ DÜNYA NİZAMINA DOĞRU

Prezident İlham Əliyev Forumda Cənubi Qafqazın inteqrasiya imkanlarından danışıb. ABŞ-nin yeni administrasiyası ilə əməkdaşlıq perspektivlərini dəyərləndirib. Ukrayna-Rusiya müharibəsi ilə bağlı proqnozlarını açıqlayıb.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Artıq ənənə halını alan, dünyanın müxtəlif ölkələrinin beyin mərkəzlərinin tanınmış ekspertlərini bir araya toplayan ADA Universitetində Prezident İlham Əliyevin iştirakı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum bu dəfə də dünya mediasının xüsusi diqqətini cəlb etdi. Azərbaycan Prezidentinin istər regional, istərsə də beynəlxalq məsələlərə dair səsləndirdiyi fikirlər böyük maraqla qarşılandı.

ETİMADIN ARTIRILMASI ÜÇÜN KİÇİK ADDIMLAR

Dövlət başçısı sual-cavab formatında davam edən forum zamanı Cənubi Qafqaz üçün uzunmüddətli baxışını açıqlayıb. Bildirib ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı Cənubi Qafqaza nisbətən inteqrasiya olunmuş region kimi inkişaf etməyə imkan vermədi. Onun sözlərinə görə, Azərbaycan və Ermənistan arasında saziş imzalandığı təqdirdə əməkdaşlığın başlanılmasına heç bir maneə qalmayacaq: "Hesab edirəm ki, biz vaxt itirməməliyik, çünki yenə də sülh sazişinə gəldikdə, top Ermənistandadır. Mən bir çox hallarda Ermənistandan ərazi bütövlüyümüz və onların konstitusiyası ilə bağlı gözlədiklərimizi dəfələrlə açıq şəkildə bildirmişəm. Bunlar məlumdur. Beləliklə, bütün bu işlər tamamlanan və sülh sazişi imzalanan kimi Cənubi Qafqazı inteqrasiya olunmuş regiona çevirməyə cəhd etmək üçün heç bir maneə qalmayacaq. Hesab edirəm ki, bu vəziyyət Cənubi Qafqazın üç ölkəsinin xeyrinədir. Realist olduğum üçün biz dərhal Ermənistanla dost olacağımızı təsəvvür edə bilmərik. Bu, real deyil və hətta belə bir iqtisadi inteqrasiya haqqında danışmaq hələ tezdir. Lakin biz etimadın artırılması üçün kiçik addımların atılmasına hazırıq".

"AZƏRBAYCAN ABŞ ÜÇÜN ÇOX MÜHÜM TƏRƏFDAŞ OLA BİLƏR"

Prezident İlham Əliyev ABŞ-nin yeni administrasiyası ilə Azərbaycanın ikitərəfli əlaqələrinin inkişafı perspektivlərinə də toxunub: "Biz dünyanın ən güclü ölkəsi olan ABŞ ilə hər zaman yaxşı münasibətlərimizin olmasını istəmişik. Bu, cənab Blinkenin rəhbərlik etdiyi Dövlət Departamentinin yürütdüyü anti-Azərbaycan siyasəti və Prezident Bayden administrasiyasında olan anti-Azərbaycan mövqeli bir çox şəxslər üzündən baş verdi".

Dövlət başçısı bildirib ki, Donald Trampın prezidentlik fəaliyyəti başlayandan ABŞ siyasətində anti-Azərbaycan trendi dayandırıldı və bu, artıq müsbət məqamdır: "İkincisi, artıq Tramp administrasiyasının üzvləri ilə Azərbaycan nümayəndə heyəti arasında müxtəlif səviyyələrdə yüksəksəviyyəli təmaslar baş tutub, gündəlik çox səmərəli və qarşılıqlı şəkildə məqbul olub. Üçüncüsü, Tramp administrasiyasının gündəliyini nəzərə alsaq, biz münasibətlərimizdə bu dövrün tərəfdaşlığımızı gücləndirmək üçün çox yaxşı imkan olacağını gözləyə bilərik, həmçinin bizim birinci prezidentlik dövründə Tramp administrasiyası ilə işləməklə bağlı çox müsbət təcrübəmiz var. Bizim münasibətlərimizdə heç bir böhran yox idi".

Dövlət başçısı qeyd edib ki, Amerikanın milli maraqları baxımından, Azərbaycanla güclü əlaqələrin olması bu region üçün çox mühümdür. Çünki Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsidir: "Qlobal Cənubun bir hissəsi olan, 4 il uğurlu sədrlik etdiyimiz Qoşulmama Hərəkatında güclü mövqeyə, artıq müzakirə etdiyimiz kimi Mərkəzi Asiya regionu ilə güclü əlaqələrə malik olan, imkanları, iqtisadi potensialı, enerji ehtiyatları olan, gücünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirmiş Ordusu olan və hər kəslə siyasi əlaqələri olan Azərbaycan ABŞ üçün çox mühüm tərəfdaş ola bilər. Biz bunun olmasını istəyirik".

"ATƏŞKƏS HEÇ ZAMAN MÜHARİBƏNİ DAYANDIRMIR"

Prezident İlham Əliyev Rusiya ilə Ukrayna arasındakı müharibəyə dair ölkəmizin mövqeyini açıqlayıb və sülh perspektivlərini də dəyərləndirib. Onun sözlərinə görə, biz hər zaman Ukraynanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və dəstəkləməkdə davam edəcəyik: "Bir sözlə, kimdən soruşsanız, deyəcək: "Biz istəyirik ki, müharibə dərhal dayansın". Bəli, biz də istəyirik. Lakin əsas sual ondan ibarətdir ki, həmin atəşkəs, daha doğrusu, potensial atəşkəs və əgər belə demək olarsa, müvəqqəti atəşkəs dayanıqlı olacaqmı? İki açıq müharibədən keçmiş və onların arasında olan dövrü görmüş ölkə kimi deyə bilərəm ki, atəşkəs heç zaman müharibəni dayandırmır".

Dövlət başçısı qeyd edib ki, yaxın gələcəkdə Ukrayna ilə Rusiya arasında sülh üçün hər hansı perspektiv görmür: "Rusiya işğal olunmuş əraziləri Rusiyanın bir hissəsi kimi bəyan edib. Onlar bundan necə geri çəkilə bilərlər? Ukrayna, o cümlədən bütün dünya həmin işğal olunmuş əraziləri Ukraynanın hissəsi hesab edir. Azərbaycan da onları Ukraynanın hissəsi hesab edir. Onda necə qurban verə bilər və deyə bilər ki, ərazilər Ukraynanın deyil? Əgər bu baş verərsə, onda belə çıxır ki, mən beynəlxalq siyasətdə nəyi isə başa düşmürəm. Əfsuslar olsun ki, müharibələr yekun kapitulyasiya aktı olanda bitir".

"BİZ QLOBAL MƏSƏLƏLƏRDƏ ÖZ SÖZÜMÜZÜ DEMƏLİYİK"

Prezident İlham Əliyev Azərbaycanın Türk dünyası ilə əlaqələrini də xüsusi vurğulayıb, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıqdan danışıb. Bildirib ki, Türk dünyasında ölkələr arasında münasibətlər bizim üçün çox vacibdir: "Bizim üçün bu, xarici siyasətimizin əsas prioritetlərindən biridir. Bizi tarix, etnik köklər, dil oxşarlıqları, mədəniyyət və adət-ənənələr birləşdirir və biz təşkilatı daha güclü və nəticəyə yönələn təşkilat kimi görmək istəyirik. Bu məqsədlə Azərbaycan əlindən gələni edir. Düşünürəm ki, üzv dövlətlər arasında qarşılıqlı fəaliyyət baxımından çox yaxşı mühit var". Dövlət başçısı bildirib ki, biz daha çox çıxış etməli, daha fəal olmalı və qlobal məsələlərdə öz sözümüzü deməliyik.

XARİCİ SİYASƏTİN KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏSİ

Azərbaycan diplomatiyasının cəsarətli addımları dövlətimizin dünya siyasətindəki çəkisinin göstəricisidir. Rəsmi Bakının 2020-ci ildə əldə etdiyi hərbi qələbədən sonra sahibləndiyi orta güc statusu hesabına Yaxın Şərq-Cənubi Qafqaz-Türk dünyası vektoru üzrə nüfuz dairəsini genişləndirməsi hamı tərəfindən qəbul edilən geosiyasi reallıqdır.

RÜSTƏM QARAXANLI

Azərbaycanın beynəlxalq siyasi aktor olaraq həyata keçirdiyi xarici siyasət artıq regional hüdudları aşır. Rəsmi Bakının 2020-ci ildə əldə etdiyi hərbi qələbədən sonra sahibləndiyi orta güc statusu hesabına Yaxın Şərq-Cənubi Qafqaz-Türk dünyası vektoru üzrə nüfuz dairəsini genişləndirməsi hamı tərəfindən qəbul edilən geosiyasi reallıqdır. Xarici siyasətin keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidini nümayiş etdirən ən azı iki amil var ki, rəsmi Bakının reallaşdırdığı hazırkı kursun əsas vizit kartları qismində çıxış edir:

● Ərazisinin böyük-kiçikliyindən, dünyadakı yeri və rolundan asılı olmayaraq, istənilən dövlətlə bərabərhüquqlu münasibətlərə malik olmaq;

● Təmsil etdiyi bölgənin siyasi və coğrafi hüdudlarını aşaraq transmilli oyunçuya çevrilmək.

Son bir həftə ərzində Azərbaycan hər iki amilə dair geosiyasi master-klas nümunələrini sərgiləməyə müvəffəq oldu.

ALMAN "PEDANTİZM"İ VƏ AZƏRBAYCANIN SİYASİ KORREKTƏSİ

Aprelin ilk günlərində Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Ermənistan və Azərbaycana səfərinin yekunları Berlində "uğurlu voyaj" olaraq qiymətləndirilməyə də bilərdi. Yüksək pedantlıqla seçilən dəqiq almanların yol verdikləri kobud səhv Ştaynmayerin prezidentlik karyerasının xarici siyasət sahəsindəki fəaliyyətinə silinməz ləkə salardı. Rəsmi Berlinin prezidentin Qafqaz turnesi ilə bağlı etdiyi paylaşımda "səhvən" erməni separatçılarının "dövlət simvolu"nu əks etdirən fotoya müraciət etməsini bəlkə də hansısa dövlət, məsələn, elə Ermənistanın özü həzm edə bilərdi. Ancaq bu hadisə Azərbaycan tərəfindən "təsadüf", "texniki səhv" kimi qəbul edilə bilməzdi. Berlin öz səhvini düzəltməli idi və buna məcbur da edildi. "Təsadüf" dərhal aradan qaldırıldı və Berlin Bakıdan üzr istədi.

Frank-Valter Ştaynmayer

Şübhə yoxdur ki, almanlar səhvlərini Bakının pressinqi nəticəsində redaktə ediblər.

Şah və mat

Azərbaycan diplomatiyasının bu cəsarətli addımı dövlətimizin dünya siyasətindəki çəkisinin göstəricisidir. ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda forumda çıxışı zamanı dövlət başçısının bu məqama toxunması baş verənlərin təfərrüatına dair beynəlxalq ictimaiyyətin məlumatlandırılması ilə yanaşı, həm də dünya mediası və ekspert camiəsinin məsələyə olan marağının göstəricisi idi: "Bunu görəndə hamımız çox təəccübləndik. Düzünü desəm, mən həmişə olduğu kimi, maksimum səmimi olmağa çalışıram, bunun səhv olduğunu düşünmək bizim üçün çox çətin idi. Çünki Almaniya çoxillik dövlətçilik ənənələri olan bir ölkədir və bütün atributlara diqqətlə yanaşılır. Bu, təkcə separatçıların bayrağı olan bayraq deyildi, artıq ölmüş separatçı qurumun bayrağı idi və orada əlavə bir şərh var idi - "Dağlıq Qarabağ" adını gördük. Ona görə də həmin bəyanatda o ifadənin yer almasını Azərbaycana qarşı təhqir hesab edirik. Biz bunu çox ciddi qəbul etdik və düzünü desəm, bizim hərəkət etməyimiz üçün bir neçə variant mövcud idi. Əgər üzrxahlıq olmasaydı, yəqin ki, səfərin vaxtı dəyişdirilə bilərdi".

Yaxın Şərq regionunun yeni aktoru

Təqribən bir ay öncə ABŞ-nin yəhudi icmasının nüfuzlu üzvləri Prezident Trampa müraciət edərək "Avram razılaşmaları"nı Azərbaycanın hesabına genişləndirməyi təklif etdilər. Bu razılaşma Trampın birinci hakimiyyəti dövründə Vaşinqtonun səyləri nəticəsində bir sıra ərəb dövlətləri ilə İsrail arasında diplomatik münasibətlərin qurulmasına dair sazişlərdən ibarətdir. Bəs yəhudi icmasının təşəbbüsü nədən irəli gəlirdi? Şübhəsiz ki, islam dünyasının aktiv üzvü olan Azərbaycanın həm müsəlman aləmi, həm də İsraillə yüksək səviyyəli münasibtlərindən. Qərbdə Bakının bu prosesə ciddi töhfə verə biləcəyinə dair böyük inam var ki, bu amil də Azərbaycanın dünya çaplı xarici siyasətə və beynəlxalq nüfuza malik dövlət olduğunu bir daha sübut edir. ABŞ Prezidentinin azərbaycanlı həmkarına Novruz bayramı münasibəti ilə ünvanladığı məktubda da bu amilə toxunması qənaətimizi təsdiqləyən digər sanballı amildir.

Bu kontekstdə Türkiyə ilə İsrail arasındakı gərgin münasibətlərin çözülməsində Azərbaycanın göstərdiyi səylər əlavə aktuallıq qazanır. Görünür elə bu səbəbdəndir ki, "Yeni dünya nizamına doğru" forumunda dövlət başçısına ünvanlanan suallardan biri də bu mövzuda idi. Prezident İlham Əliyevin cavabı Bakının Ankara və Tel-Əviv arasında vasitəçilik missiyası ilə çıxış etdiyini təsdiqlədi: "Hər iki ölkə Azərbaycanın yaxın dostudur. Biz Türkiyə ilə müttəfiqik. Biz 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışıq və rəsmi surətdə müttəfiq olmuşuq. Baxmayaraq ki, bizim müttəfiqlik münasibətlərimiz de-fakto bu formal prosedurdan uzun müddət əvvəl mövcud olub. İsrail Azərbaycana dost ölkədir. Uzun illər ərzində hər ikimiz üçün çətin zamanlarda qarşılıqlı dostluq nümayiş olunub. Ona görə də, əlbəttə ki, bu iki ölkə arasındakı gərginlik bizim üçün çox narahatlıq doğurur. Artıq məlum olduğu kimi, - baxmayaraq ki, biz özümüz bunu açıq şəkildə heç vaxt bəyan etməmişik, bu, artıq kifayət qədər geniş şəkildə yayılıb, - Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub".

Dövlətlər arasında vasitəçilik kimi ağır missiyanı yalnız dünya siyasətinə təsir edə biləcək siyasi, hərbi və iqtisadi resursları olan aktorlar üzərlərinə götürürlər. Bu vasitəçiliyin uğur komponenti də məhz onu həyata keçirənin dünyada hansı çapda söz sahibi olması ilə ölçülür. Azərbaycanın Yaxın Şərq kimi mürəkkəb və ziddiyyətlərlə bol bir bölgənin ağrılı problemlərinin həllində vasitəçi kimi qəbul edilməsi dövlətimizin daha bir nüfuz göstəricisidir.

TRAMPIN TARİFLƏRİ Almaniyanı çökdürür

Yeni tariflərin tətbiqindən sonra Avropanın fövqəldövləti ciddi sınaqlarla üz-üzədir. Hesablamalara görə, Almaniyadan ABŞ-yə ixrac təxminən 15% azalacaq və nəticədə ölkə iqtisadiyyatında son illərdə ilk dəfə resessiya baş verəcək.

AZƏR NURİYEV

Dünya ABŞ Prezidenti Donald Trampın rüsumlar tətbiq etmək qərarının şokunu yaşayır. Vaşinqtonun qərarından çaşbaş qalan ölkələrin bir qismi Tramp administrasiyası ilə eyni addımlamaq istəmədiklərini nümayiş etdirir, digər hissəsi danışıqlar aparmağa qərar verib, qalanları isə gözləmə mövqeyi tutublar. Bu məsələdə ən maraqlı olan Avropa İttifaqının (Aİ), daha dəqiq desək, onun aparıcı ölkələrinin mövqeyidir. Məlum olduğu kimi, burada lokomotiv rolunu Fransa və Almaniya oynayır. İndidən bildirilir ki, Almaniya üçün ABŞ hakimiyyətinin tətbiq etdiyi tariflər iqtisadi fəlakətlə nəticələnəcək. "Bild" alman iqtisadçılarına istinadən qeyd edir ki, dörd il ərzində bu rüsumlar Almaniyaya 200 milyard avroya başa gələ bilər.

BÜDCƏ KƏSİRİNDƏ REKORD

Almaniyanın büdcə kəsiri 1990-cı ildən bəri ən yüksək göstəricilərə çatıb və sürətlə artmağa davam edir. Nə qədər qəribə səslənsə də, Almaniyanı "Avropanın xəstə adamı" kimi xarakterizə etməyə başlayıblar. Məsələn, Avropanın sənaye gücü və dünyanın ikinci ən böyük ixracatçısı hesab olunan ölkənin bələdiyyələrinin büdcə kəsiri ötən il 24,8 milyard avroya yüksəlib.

Trampın ABŞ-yə idxal olunan mallara rüsumlar tətbiqi onsuz da zəif olan alman iqtisadiyyatını, gözlənilən 0,2% artıma baxmayaraq, resessiya ilə təhdid edə bilər. Almaniya Mərkəzi Bankının prezidenti Yoaxim Nagel Trampın tarif siyasətini "keçmişin iqtisadiyyatı" kimi tənqid edib və ABŞ-nin polad idxalına 25% rüsumuna cavab olaraq Aİ-nin tədbirlərini dəstəkləyib.

CİDDİ RESESSİYA RİSKİ YARANIB

Hesablamalara görə, Almaniyadan ABŞ-yə ixrac təxminən 15% azala bilər və Tramp tərəfindən tətbiq edilən idxal rüsumları saxlanılarsa, alman iqtisadiyyatının resessiyaya düşmə ehtimalı artacaq. Bunu Almaniyanın maliyyə naziri Yorq Kukis da etiraf edib. Trampın Almaniya üçün rüsumlar tətbiq etmək siyasəti Amerika iqtisadiyyatını qorumaq və ticarət kəsirini azaltmaq istəyi ilə bağlı olsa da, istehlakçılar üçün qiymətlərin artmasına və Aİ ilə münasibətlərdə gərginliyə səbəb olub. Trampın tarifləri ən çox hansı Avropa ölkəsinə zərbə vuracaq? Əlbəttə ki, bu, ABŞ ilə təxminən 70 milyard dollar ticarət profisiti olan Almaniyadır. Almaniya ABŞ-yə xoş gəlmək üçün özünü ucuz Rusiya enerji resurslarından məhrum etdi. ABŞ və Almaniya arasında iqtisadi münasibətlər azad ticarət və investisiya prinsiplərinə əsaslanan yüksək qarşılıqlı asılılıq və əməkdaşlıq səviyyəsi ilə xarakterizə olunurdu. Hər iki ölkə avtomobil istehsalı, texnologiya, əczaçılıq və maliyyə xidmətləri kimi sektorlarda fəal əməkdaşlıq edir. İki ölkə arasında qarşılıqlı əlaqə həmçinin davamlı inkişaf və rəqəmsallaşma sahəsində birgə səyləri əhatə edir ki, bu da qlobal arenada onların strateji tərəfdaşlığını vurğulayır. Lakin bu tərəfdaşlıq Tramp tərəfindən son onilliklərin ən ciddi çağırışı qarşısında qoyulub.

Donald Tramp

Fridrix Mertz

ƏN ÇOX ZƏRƏRİ AVTOMOBİL İSTEHSALÇILARI ÇƏKƏCƏK

İndi almanlar ABŞ-dən zərbə alıblar. İdxal olunan avtomobillərə rüsum tətbiq etmək qərarından ən çox zərəri Almaniyanın avtomobil istehsalçıları – "Porsche" və "Mercedes-Benz Group" çəkəcək. Şirkətlər aprelin 3-dən qüvvəyə minən tariflər səbəbindən təxminən 3,4 milyard avro itki ilə üzləşə bilər. İtkiləri kompensasiya etmək üçün onlar ya avtomobillərin qiymətlərini artırmalı, ya da daha çox istehsal gücünü ABŞ-yə köçürməli olacaqlar. Qeyd edilir ki, alman avtomobil istehsalçılarının əksəriyyətinin ABŞ-də zavodları var və onlar həm yerli alıcılar, həm də ixrac üçün avtomobil istehsal edirlər. Aİ-nin cavab tədbirləri nəzərdən keçirməsi ilə ticarət müharibəsindəki hər hansı bir eskalasiya onsuz da artan xərclərdən və zəif tələbdən əziyyət çəkən sənayeyə daha çox zərər verə bilər. Qeyd edək ki, martın 26-da Tramp ABŞ-nin ölkədən kənarda istehsal olunan bütün avtomobillərə 25 faiz idxal rüsumları tətbiq edəcəyini açıqlayıb. Əvvəllər tətbiq edilən 2,5 faiz rüsum da qüvvədə qalmalıdır ki, bu da yeni tarif dərəcəsinin 27,5 faiz olması ilə nəticələnəcək.

KOALİSİYA HÖKUMƏTİNİN YARADILMASI GECİKİR

Yaranmış durum Almaniyanın yeni koalisiya hökumətinin Avropanın ən böyük iqtisadiyyatını iki illik tənəzzüldən çıxarmaq səylərini çətinləşdirir. Gələcək kansler Fridrix Mertz Trampın yeni tarifləri elan etməsindən sonra şirkətlərin səhmlərinin ciddi ucuzlaşdığından Almaniyanın rəqabət qabiliyyətini təmin etmək üçün sürətli addımlar atmağa çağırıb. "Beynəlxalq fond və istiqraz bazarlarında vəziyyət dramatikdir və daha da pisləşə bilər. Buna görə də Almaniya təcili olaraq beynəlxalq rəqabət qabiliyyətini mümkün qədər tez bərpa etməlidir", - deyə Mertz bildirib. O, əlavə edib ki, bu məsələ koalisiya danışıqlarında əsas yer tutmalı, onun partiyasının vergilərin və enerji qiymətlərinin aşağı salınması, bürokratiyanın azaldılması çağırışları ilə səsləşməlidir. Almaniyanın gələcək lideri Trampa qarşı sərt mövqe sərgiləyib və vurğulayıb ki, Avropa müdafiə üçün Vaşinqtondan asılılığını azaltmalıdır.

Görünən odur ki, Avropanın fövqəldövləti ciddi sınaqlarla qarşı-qarşıyadır. Ölkə iqtisadi çətinliklərlə üz-üzə qala bilər ki, bu da təsirsiz ötüşməyəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

QİYMƏTİN AZALMASININ AZƏRBAYCANA HANSI TƏSİRLƏRİ OLACAQ?

NEFT BAZARINDA NARAHATLIQ YARADAN DALĞALANMA

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Tramp administrasiyasının tarif qərarlarından sonra dünya bazarlarında neft qiymətlərində kəskin eniş müşahidə edilir. Bu, Azərbaycana da təsirsiz ötüşmür. Hətta büdcəyə yenidən baxılma zərurəti də yarana bilər.

Son həftələrdə dünya neft bazarında ciddi dalğalanma müşahidə olunur. ABŞ Prezidenti Donald Tramp administrasiyasının atdığı addımlar, dünya ölkələrinə tətbiq etdiyi tariflər neftin kəskin şəkildə ucuzlaşmasına səbəb olub. Trampın tarif qərarlarından sonra neftin qiyməti cəmi bir neçə gün ərzində 10 dollardan çox azalıb və bu, qlobal enerji bazarında ciddi narahatlığa yol açıb. Brent markalı neftin fyuçersləri 2021-ci ilin martından bəri ilk dəfə bir barel üçün 61 dollardan aşağı düşüb. Ticarət müharibəsinin yaratdığı qeyri-müəyyənlik və iqtisadi fəaliyyətlərin yavaşlayacağı ilə bağlı gözləntilər fonunda "OPEC+" ölkələrinin hasilatı artırmaq qərarı da təklifin artmasına səbəb olaraq qiymətlərin enməsini sürətləndirib. Belə bir şəraitdə, iqtisadiyyatını böyük ölçüdə neft gəlirlərinə əsaslandıran Azərbaycan üçün bu proseslərin təsiri daha da vacib əhəmiyyət kəsb edir. Dövlət büdcəsində bir barel üçün nəzərdə tutulan 70 dollar qiyməti ilə bağlı da suallar yaranıb. Bəs görəsən neftin qiymətləri azalmaqda davam edəcəkmi? Bu, Azərbaycan üçün hansı nəticələr doğura bilər?

NEFTİN QİYMƏTİNDƏ KƏSKİN ENMƏ

"NEFTİN QİYMƏTİNDƏ AZALMA BİR MÜDDƏT DƏ DAVAM EDƏCƏK"

İqtisadçı Murad Calalovun sözlərinə görə, Trampın siyasəti təkcə neft sektoruna deyil, iqtisadiyyatın bütün sahələrinə təsir edib: "Birjalarda səhmlərin qiymətlərində də kifayət qədər enmələr var. Hansı ki, güclü yüksəliş gözlənilirdi".

M.Calalov bildirdi ki, Trampın bu addımları atmaqda əsas məqsədi dünyada hökmranlığı ələ almaqdır: "Rusiya-Ukrayna müharibəsinə görə Rusiyaya sanksiyalar tətbiq edilib. Avropa böyük bir bazarını itirib. Trampın əsas məqsədi bu vəziyyətdən istifadə etməkdir. Tariflərin 25 faiz yüksəldilməsi, amma öz neftinə tarif tətbiq etməməsi, vergilərdən azad olunması onu göstərir ki, Avropa külli miqdarda vəsait itirəcək. İtkiləri kompensasiya etmək üçün ABŞ-dən tədarük etməlidir".

İqtisadçının fikrincə, neftin qiymətində azalma bir müddət də davam edəcək: "Amma daimi belə olmayacaq. Avropanın verəcəyi qərarlardan asılı olaraq qiymətlər dəyişəcək. Anidən yüksəliş də mümkündür".

"NEFT QİYMƏTLƏRİ 80 DOLLARA QALXMAYACAQ"

Z.Vəliyevin sözlərinə görə, neft qiymətləri yaxın gələcəkdə 80 dollara qalxmayacaq, lakin yenə də yüksələcək: "Bir neçə ildir qiymətləri geosiyasi faktorlar, hərbi-siyasi vəziyyət, aparıcı dövlətlərin maliyyə siyasəti təyin edir. Düşünürəm ki, bazardakı hazırkı qiymət uzun müddət qala bilməz. İlin əvvəlində proqnoz vermişdik ki, ikinci rübdən sonra neft qiymətlərində sıçrayışlar olacaq. Amma sərt tarif siyasəti neft qiymətlərini təhdid altına alır. Bu məsələ qısa müddətdə aradan qalxmasa, fond bazarlarında sabitləşmə baş verməsə, bu, həm neftə olan tələbata, həm də investisiyalara təsir edəcək. Bu zaman neft qiymətlərində enmə müşahidə olunacaq". Ekspert bildirir ki, neft qiymətləri 70 dollar və üzərində olacaq. Qiymətin necə qalacağı dövlətlərin verəcəyi qərarlardan asılıdır. ABŞ tarif müharibəsini bir az yumşaldarsa, fond bazarlarında sabitləşmə olarsa, neft qiymətlərində sıçrayışlar olacaq.

DÖVLƏT BÜDCƏSİNƏ YENİDƏN BAXILACAQMI?

Ekspert dünyadakı proseslərin Azərbaycan üçün nəticələrinə də toxunub. O hesab edir ki, neftin qiymətlərindəki kəskin enmə davamlı olarsa, bu, büdcəyə yenidən baxılma zərurəti yarada bilər. Bütün hallarda bizdə də hasilatda azalma baş verir. Yanvar-fevralda 4,5 milyon ton neft hasil edilib. 2024-cü ilin eyni dövründə bu rəqəm 4,8 milyon idi".

Zəfər Vəliyev

"BAZARDA TƏDARÜK QITLIĞI MÜŞAHİDƏ EDİLƏ BİLƏRDİ"

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev deyir ki, "OPEC+"un hasilatı artırma qərarı bazarda yenilik oldu. Əvvəlki qərar gündəlik 139 min barel neft həcminin artırılmasından ibarət idisə, indi artım həcmləri 411 min barel olacaq: "Bu qərarın verilməsi səbəblərindən biri odur ki, qarşıdakı aylarda tədarük qıtlığı müşahidə ediləcək. Çünki İranın, Venesuelanın, Rusiyanın beynəlxalq ixrac qabiliyyətlərində problemlər yaşanır. Rusiyanın 186-dan çox tankeri hazırda sanksiya altındadır. Onların beynəlxalq limanlara girişi qadağan edilib. ABŞ İrana tətbiq etdiyi sanksiyaları daha da sərtləşdirib. Eyni problemi Qazaxıstan da yaşayır. Bu səbəbdən "OPEC+" hasilatı artırdı. Bu olmasaydı, gələcək dövrdə qıtlıq yaranardı".

Murad Calalov

"İQTİSADİ SİYASƏTƏ YENİDƏN BAXILMALIDIR"

İqtisadiyyat üzrə fəlsəfə doktoru Emin Qəribli isə düşünür ki, bu proseslərin ölkəmizə mənfi təsir etməməsi üçün iqtisadiyyatımızı şaxələndirməliyik: "Neftin qiymətinin azalması tələbatla bağlıdır. İstənilən halda, dünya iqtisadiyyatı belə hallara hazırlıqlı olmalıdır. Tələbat normallaşsa qiymətlər də stabilləşə bilər. Bizim iqtisadiyyatımız da neft və qazdan asılıdır. Neft qiymətlərindən asılı olmamaq üçün iqtisadi siyasətə yenidən baxılmalıdır".

Emin Qəribli

EV AZ, QİYMƏT BAHA

Bakı şəhərinin bir sıra ərazilərində aparılan köçürülmə-abadlıq işləri əmlak bazarına təsirsiz ötüşmür. Evləri sökülən şəxslər mənzil axtarışına çıxır və bu, yalnız mərkəzdə deyil, kənar ərazilərdə də alqı-satqını sürətləndirir.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bakı şəhərinin bir sıra ərazilərində köçürülmə-abadlıq işləri aparılacaq. Bu barədə Bakı Şəhər İcra Hakimiyyətindən məlumat verilib. Məlumata əsasən, paytaxt Bakının şəhərsalma landşaftının müasir səviyyədə qurulması, şəhər sakinləri və qonaqlar üçün rahat, təhlükəsiz, ekoloji cəhətdən təmiz, mobil, turizm mərkəzli bir şəhərə çevrilməsi ön plandadır. Bu səbəbdən şəhərin bəzi ərazilərində köhnə tikililərin, yaşayış və qeyri-yaşayış obyektlərin köçürülməsi, söküntü və abadlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Söküntü işləri istismar müddəti başa çatan və tarixi əhəmiyyət daşımayan, əsasən qəzalı vəziyyətdə və aşınma dərəcəsi olduqca yüksək olan bina və tikililəri əhatə edir.

Maraqlıdır, ilkin mərhələdə hansı ərazilərin sökülməsi nəzərdə tutulub? Ən əsası, söküntü işləri həmin ərazilərdə əmlakın satışı və kirayə qiymətlərinə necə təsir edəcək?

"ALQI-SATQI SÜRƏTLƏNƏCƏK"

Əmlak eksperti Elnur Fərzəliyev deyir ki, hazırda söküntü işləri Bakının Yasamal rayonunda, "Sovetski" adlanan ərazinin bir hissəsində aparılır: "Burada qəzalı və köhnə binalar sökülür. Həmin ərazilərdə tarixi abidələr, memarlıq üslubunda tikilən çoxsaylı binalar var ki, onlar təmir olunur. Sökülən ərazilərdə isə yalnız mənzillər deyil, yeni parkların salınması nəzərdə tutulur. Bu, keçmiş Bakını qoruyub saxlamağa və şəhərin mərkəzində sıxlığın aradan qaldırılmasına hesablanıb. Digər tərəfdən, söküntülər yeni avtomobil yollarının salınması ilə bağlı da aparılır. Təbii ki, evləri sökülən şəxslər mənzil axtarışına çıxacaq və yalnız mərkəzdə deyil, kənar ərazilərdə də alqı-satqı sürətlənəcək. Bu da əmlak bazarına təsirsiz ötüşməyəcək".

TƏLƏB ÇOX, SAY AZ - BAHALAŞMA QAÇILMAZDIR

Mütəxəssis bildirir ki, kirayə bazarında nəinki qiymətlər bahalaşacaq, ümumiyyətlə, mənzil qıtlığı müşahidə olunacaq: "Nəzərə almaq lazımdır ki, sökülən mənzillərin böyük bir hissəsi kirayəyə verilirdi. Həmçinin evləri sökülən şəxslər mənzil alana qədər bəlli müddət kirayədə yaşamaq məcburiyyətindədirlər. Təbii ki, bu, kirayə bazarında da qiymətləri artıracaq. Tələb çox, say az olduğu üçün bahalaşma qaçılmazdır".

"PAYTAXTDA UCUZ KİRAYƏ MƏNZİL TAPMAQ MÜMKÜN OLMAYACAQ"

Qiymətlərə gəldikdə isə, E.Fərzəliyev bildirir ki, qiymətlər ortalama 10 faizə qədər artacaq: "Əmlaklarla bağlı konkret qiymət demək olmur. Otaq sayına, yerləşmə yerinə və binanın ilinə görə qiymətlər müxtəlifdir. Adətən yay aylarında həyət evlərinə tələbat artır, çoxmənzilli binalara azalır. Təbii ki, tələbat azalanda qismən enmələr qaçılmaz olur, amma söküntülərlə bağlı müştəri çox olduqda, azalmadan danışa bilmərik. Əgər qısa zaman ərzində əmlak bazarına yüzlərlə müştəri müraciət edərsə, bu, qiymətlərin ortalama 10 faizə qədər artması deməkdir. Qiymətlərin baha olması ilə yanaşı, ev tapmaq da çətinləşəcək. 2040-cı ilə qədər paytaxt Baş plana uyğun olacaq. Bu da onu deməyə əsas verir ki, çox sayda köhnə bina və fərdi həyət evi söküləcək. Təbii ki, ən ucuz kirayə verilən və satılan mənzillər köhnə binalarda və həyət evlərində olurdu. Onları yeni tikililər əvəzlədikdə, mənzillərin qiymətində iki dəfəyə yaxın fərq yaranacaq. Yaxın gələcəkdə paytaxtda ucuz kirayə mənzil tapmaq mümkün olmayacaq".

Daşınmaz əmlak bazarı üçün ciddi rəqəm

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, iqtisadçı Vüqar Oruc deyir ki, Bakı şəhərinin 11 rayonunda mərhələli qaydada söküntü işləri aparılacaq: "Söküntü Qaradağı çıxmaq şərtilə, Bakının bütün rayonlarını əhatə edəcək. Söküntü prosesi ilə bağlı vətəndaşlara ya imtina etdiyi mülkiyyətə görə pul verilir, ya da kompensasiya məbləğinə uyğun olaraq həmin ərazidə mənzillə təmin olunurlar. Yeni bina hazır olana qədər vətəndaşlar kirayə qalırlar. Təbii ki, bu, kirayə bazarında artıma səbəb olacaq. Hazırda altı mindən çox ailə ilə proses aparılır. Bu, daşınmaz əmlak bazarı üçün çox ciddi rəqəmdir".

Elnur Fərzəliyev

Vüqar Oruc

Hansı ərazilərdə qiymətlər stabilləşəcək?

Mülkədar Rüstəmov

V.Oruc bildirir ki, təmir olunan, abadlıq aparılan ərazilərdə mənzil qiymətləri artacaq: "Amma bu o demək deyil ki, qiymət artımı Bakıda bütün rayonları əhatə edəcək. Hesablamalara görə, yeni tikilən ərazilərdə qiymətlər artacaq, vətəndaşların əksəriyyəti həmin ərazilərə yönələcəklər. Daşınmaz əmlak bazarının diqqətində həmin ərazilər olacaq. Digər ərazilərdə isə qiymətlər stabilləşəcək".

200 MİNDƏN YARIM MİLYONA

Əmlak eksperti Mülkədar Rüstəmov isə deyir ki, hazırda şəhərə yaxın ərazidə köhnə binada üçotaqlı mənzilin qiyməti 200-300 mindirsə, bina yeni tikili ilə əvəzləndikdə, yaxın gələcəkdə bu rəqəm yarım milyon olacaq: "Mərkəzə yaxın ərazilərdə qiymətlər fərqli olacaq. Kirayə bazarında isə onsuz da qıtlıqdır və artıq qiymətlər 30 faizə qədər qalxıb. Binaları sökülən sakinlər mənzil axtarışındadırlar. Əvvəllər kirayə evi daha çox tələbələr axtarırdısa, indi axtarışda olanlar ən çox mənzilləri sökülənlərdir. Bu saya tələbələri də əlavə etsək, qiymətlərin bahalaşması tam normaldır".

İNGİLİS DANİELLƏ AZƏRBAYCANLI GÜNAYIN İLLƏRİN SINAĞINDAN KEÇƏN SEVGİ HEKAYƏSİ "KASPİ"DƏ

AZƏRBAYCANLI RƏQİBLƏRİNƏ QALİB GƏLƏN İNGİLİS KÜRƏKƏN

SÖHBƏTLƏŞDİ
Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

Günay: "Xasiyyətlərimiz yaxın olmasa da, o, mənim çatışmayan parçamdır. Mən alov olanda o, su olmağı seçir. O, qəzəbli olanda mən geri çəkilirəm. Düşünürəm ki, ailə həyatı bir tamdır, bu balansı qoruyub saxlamağı bacarmalısınız".

Bəzi insanlara görə, qarşılıqlı sevgi evlilikdən, xüsusən də uşaqlar dünyaya gəldikdən sonra arxa plana keçir. Məsuliyyət, ailə yükü o qədər artır ki, tərəflər bir-birindən uzaqlaşırlar. Lakin bu stereotipdən uzaq ailələr də var. Məsələn, Daniel və Günay Hyre cütlüyü kimi. İki ölxaddan sonra da onların sevgisi, bir-birinə olan münasibəti elə ilk tanış olduqları gündə olduğu kimidir. Sevgiləri onları sanki gəncləşdirir, irəli aparır. "Kaspi" qəzetinin "Ailə" rubrikasının budəfəki qonaqları ingilis Daniel və azərbaycanlı Günaydır.

"DANİELİ SEÇMƏYİMİN SƏBƏBİ..."

Günay deyir ki, bu sevgidə ilk addımı Daniel atıb: "2018-ci ilin yaz ayları idi. Daniel Azərbaycana konfransa gəlmişdi. Orada tanış olduq. Lakin çox danışmadıq. Sonra mənə "Facebook"dan dostluq təklifi göndərdi. İki həftə sonra "mənimlə evlənərsən?", - deyə yazdı. Çox rəqiblərinin olduğunu, nə üçün məhz onunla evlənməli olduğumu soruşdum. Dedi ki, mən sənə bunu sübut edəcəyəm. Avqust ayında Bakıya gəldi və elə həmin gün mənə evlilik təklifi etdi. Ona ilk baxışda aşıq oldum. Mənə çox insan evlilik təklif etmişdi. Lakin Danieli seçməyimin səbəbi mənim də ilk görüşdə onu bəyənməyim idi. İlk dəfədən hiss etdim ki, doğru insandır. Qəlbimdə şübhə yaranmadı".

Daniel də elə ilk görüşdən Günaya aşıq olubmuş: "Konfransda görəndən ona heyran qalmışdım. Çünki çox gözəl idi. Digər qızlardan çox fərqlənirdi. Onu görən andan hiss etdim ki, bu qızda məni özünə çəkən nəsə var. Mənim üçün yeni hisslər idi. Heç vaxt heç kimə qarşı belə hiss etməmişdim. Günay mənə görə hər kəsdən ağıllıdır, şəndir. Həmçinin mənə daha yaxşı insan olmağa kömək edir".

"O, MƏNİM ÇATIŞMAYAN PARÇAMDIR"

Danielin fikrində bu qədər qəti olması Günayın ona "hə" deməsinə səbəb olub: "Mən onun ən çox sözünün üzərində dayanmasını bəyəndim. Dedi ki, ailə qurmaq istəyirəm və bunu etdi. Xaricilər normalda bu qədər tez evlilik qərarı vermirlər. Amma Daniel hərəkətlərində də məniml ailə qurmaq istədiyini göstərirdi".

Günayın fikrincə, onlar tam fərqli olsalar da, bir-birləri üçün yaradılıblar: "Xasiyyətlərimiz yaxın olmasa da, o, mənim çatışmayan parçamdır. Mən alov olanda, o, su olmağı seçir. O, qəzəbli olanda mən geri çəkilirəm. Düşünürəm ki, ailə həyatı bir tamdır, bu balansı qoruyub saxlamağı bacarmalısınız".

Daniel: "Mən özümdən tez çıxıb əsəbiləşə bilirəm. Amma Günay çox sakit təbiətlidir. Günayın əsəbiləşməyi üçün ciddi səbəblər olmalıdır. O, məni nəzarət altında saxlaya bilir, deyə bilərik. Bu da bizim fərqli xüsusiyyətimizdir".

"BİZDƏ İCAZƏ ALMAQ KİMİ BİR QAYDA YOXDUR"

Günay deyir ki, sakitliyini qoruya bilməsinin bir neçə sirri var: "Özümü heç kimlə müqayisə etmirəm. Digər məsələ isə özümü sevməkdir. Amma bunun da orta həddini keçməməlisən. Biz demək olar ki, mübahisə etmirik. Heç vaxt küsülü olmamışıq. Nəsə xoşumuza gəlməyəndə qarşılıqlı danışırıq, söhbəti bağlayırıq. Daniel də küsmək, dava etmək tərəfdarı deyil. Hər şeyi sülhlə həll etməyi sevir. Hətta sözümüzün çəp gəlməsi belə xoşuna gəlmir".

Cütlüyümüz hər zaman bir-birilərini irəli aparmağa çalışır: "Biz hər ikimiz olduqca məqsədyönlüyük. Özümüzlə rəqabət aparırıq. Daniel bütün qərarlarımda məni dəstəkləyir. Bizdə icazə almaq kimi bir qayda yoxdur. Hər kəs fikrini bildirir. Əgər qarşı tərəfin narazılığı olarsa, danışırıq. Həqiqətən də haqlıdırsa, təbii ki, nəzərə alınır. Amma səbəbsiz sadəcə "istəmirəm" demək, mane olmaq, belə bir şey ailəmizdə mövcud deyil. Hər kəs bir-birinin fikrinə hörmətlə yanaşır".

> *Qayınanamgil doqquzuncu mikrorayonda yaşadığı üçün ora mənə çox doğmadır. Orada özümü evimdəki kimi hiss edirəm. Qonşular, marketdəki satıcılar hamısı məni tanıyırlar.*

"BİRLİKDƏ DANIŞMAĞI, GÜLMƏYİ BACARMALISAN"

Günayın fikrincə, sağlam evliliyin sirri qarşılıqlı sevgi və hörmətdədir: "Sevgisiz ailə mümkün deyil. Düşünürəm ki, tərəflər bir-birini hər zaman dəstəkləməlidirlər. Varlığını hər zaman hiss etməlisiniz. Sizi hər zaman yüksəltməlidir, inkişaf etdirməlidir. Daniel hər fikrimdə yanımdadır, sorğulamadan dəstək olur. Ailəsi də mənə qarşı bu şəkildə davranır. Düşünürəm ki, ailədə hər şey qadından asılıdır. Qadın əsas həlledici qüvvədir. Danieldən kömək istəsəm, mənim üçün edər. Həmişə deyir ki, nəyi etməyimi istəyirsənsə söylə, sənin üçün yerinə yetirim".

Daniel üçün isə evlilikdəki əsas məqamlar bir az başqadır: "Mən sağlam münasibətin sirrini inamda görürəm. Birlikdə danışmağı, gülməyi bacarmalısan. Əvvəldən hər şeyi danışaraq həll etmək lazımdır. Dost, ortaq olmalısınız. Biz bir komandayıq. Balans məncə, çox önəmlidir. Hər kəs öz öhdəsinə düşən işləri görür".

"SİZİN XANIMLAR DAHA AİLƏCANLIDIR"

Cütlük evliliklərindən bəhs etdikdən sonra bu yolda nələr yaşadıqlarından da danışdı. Daniel ilk dəfə ailəsinə azərbaycanlı xanımla ailə qurmaq istədiyini bildirdikdə, bu, onlara bir az qəribə gəlib: "Sizin mədəniyyətiniz məni daha çox cəlb etdi. Adət-ənənələrinizə olan bağlılığınız çox xoşuma gəlmişdi. Fikrimcə, buna görə sizin xanımlar daha ailəcanlıdırlar. Mən azərbaycanlı qızla ailə qurmaq istədiyimi dedikdə ailəm təəccübləndi. Çünki azərbaycanlıları tanımırdılar. Öncə düşündülər ki, niyə azərbaycanlı xanım xarici bəylə evlənmək istəyir? Bəlkə başqa məqsədi var? Amma Günayı tanıdıqdan sonra onun sevgisinin həqiqi olduğunu gördülər".

Daniel azərbaycanlı qohumları ilə tanışlığından da bəhs etdi: "Bakıya gəldikdə Günayın ailəsi ilə də tanış oldum. Çox həyəcanlı idim. Qardaşı, atası məni necə qarşılayacaq deyə düşünürdüm. Mənimlə çox gözəl ünsiyyət qurdular. Vaxt keçdikcə artıq biz bir ailə olduq. Anası anam, qardaşı qardaşımdır".

"HEÇ VAXT BELƏ ƏNƏNƏLƏR GÖRMƏMİŞDİLƏR"

Günayın sözlərinə görə, evlilik yolunda bütün adətlərə əməl olunmuşdu, lakin bu, ingilislər üçün ilk idi: "Elçilikdə ailələrimiz tanış oldu. Sonra isə nişanlandıq. Bütün adət-ənənələrə də əməl etmişdik. Amma ingilislər üçün bu, ilk dəfə idi. Onlar heç vaxt belə adətləri görməmişdilər. İlk dəfə olmasına baxmayaraq, çox bəyəndilər. Çayın yanına şirinlik qoymaq lazımdır deyəndə, Danielin atası şokolad qoymuşdu. Onlarda belə adətlər olmadığı üçün qəribə gəlmişdi".

Daniel: "Mən belə adətlər görməmişdim. Günay mənə deyəndə ki, xonça, şokoladlar lazımdır, təəccübləndim. Soruşmuşdum ki, bu qədər şirniyyatı kim yeyəcək? Sonra mənə izah etdilər ki, həmin şokoladlar paylanılır. Mənə çox maraqlı və qeyri-adi gəlmişdi".

İngilis kürəkən üçün toylarımız da yenilik olub: "Sizin toylarınızda yemək-içmək daha çox olur. İngilis toylarında belə deyil. Bizdə birinci yeyib-içmək olur, sonra əyləncə. Lakin sizdə hamısı birlikdədir. Sizin toylar daha şən keçir".

Daniel hətta toy öncəsi Azərbaycan rəqsi də öyrənib: "Rəqslərini mənə maraqlı gəlmişdi. Sizin kimi rəqs etməyi öyrənmişdim. Utancaq insan olsam da, rəqsinizi oynamaq mənim üçün çox xoş idi".

"GÜN KEÇDİKCƏ DİLİNİZİ DAHA YAXŞI ANLAYIRAM"

Günay deyir ki, Daniel bizim adət-ənənələrimizdən əlavə, dilimizi də öyrənməyə çox böyük həvəs göstərir: "Hazırda telefonunda dilimizi öyrənmək üçün proqram da var. İlk tanış olduğumuz gün özünə Azərbaycan dilini öyrənmək üçün səsli kitab aldı".

Daniel dilimizə olan sevgisini belə ifadə etdi: "Mən səni sevirəm", "çox sağ ol", "necəsən" kimi günlük sözləri bilirəm. "Qardaş", "Ağdam", "ailə" sözlərini daha çox sevirəm. Gün keçdikcə dilinizi daha yaxşı anlayıram. Azərbaycanda olanda dilinizi öyrənmək daha rahat gəlir. Çünki insanlarla danışıram, eşidirəm və beləliklə daha çox öyrənirəm".

Cütlüyümüz hazırda evlərində həm ingilis, həm də Azərbaycan dillərindən istifadə edir. Günay deyir ki, gələcəkdə həm oğluna, həm də qızına dilimizi öyrədəcək: "Qızım artıq az da olsa dilimizi anlayır, gələcəkdə daha da təkmilləşdirəcəyik".

"DOQQUZUNCU MİKRORAYON MƏNƏ ÇOX DOĞMADIR"

Daniel Azərbaycanı daha öncə də tanıyırmış: "Həmin konfransda ilk dəfə idi Azərbaycana gəlirdim. Ölkənizi tanıyırdım. İngilislərin çox getmədiyi ölkələr marağımı cəlb etdiyi üçün Azərbaycanla maraqlanırdım. Tarixə, müharibələrə olan marağım da məni sizin ölkə haqqında araşdırmalara sövq etmişdi".

Daniel ölkəmiz haqqında təəssüratlarını da bölüşdü: "Rayonlardan Qubaya getmişəm. Ən çox getmək istədiyim isə Şuşadır. Amma Bakını daha çox gəzmişəm. Fəvvarələr meydanını sevirəm. "Port Baku" çox xoşuma gəlir. Qayınanamgil doqquzuncu mikrorayonda yaşadığı üçün ora mənə çox doğmadır. Orada özümü evimdəki kimi hiss edirəm. Qonşular, marketdəki satıcılar hamısı məni tanıyırlar. Həmişə çox yaxşı davranırlar. Mən də bu isti münasibəti çox bəyənirəm. İnsanlarınız çox qonaqpərvərdirlər. Sanki sənə hər şeylərini verməyə hazırdırlar. Çox yardımsevərdirlər".

Danielin ən bəyəndiyi bayramımız Novruzdur: "Paxlavanızı çox bəyənirəm. Südlü aşınızı xoşlayıram. Novruz bayramı bizim Pasxa bayramımıza çox bənzəyir. Hər ikisi yazın gəlişi ilə bağlıdır, hər ikisində də yumurta boyamaq kimi adət var. Amma çox istəyərəm ki, nə vaxtsa Novruz bayramında Azərbaycanda olum, adətlərinizi canlı yaşayım".



Fotolar: Əjdər İbrahimov - Global Photostock

"QAYINANAM PLOV BİŞİRMƏYİ ÖYRƏNMƏK İSTƏYİR"

İngilis kürəkən mətbəximizin əvəzolunmaz yeməklərini çox sevir: "Yeməklərinizdən plov və kələm dolmasını çox sevirəm. Yarpaq dolmasının yarpağını sevmədiyim üçün onu yemirəm. Kababınızı da bəyənirəm. Müxtəlif yerlərdə kabab yemişəm, amma heç biri sizinki kimi deyil".

Günayın sözlərinə görə, yeməklərimizə aşiq olan sadəcə yoldaşı deyil: "Evimizdə hər zaman milli yeməklərimizdən plov, dolma bişirirəm. Övladlarım və Danielin ailəsi də yeməklərimizi çox sevirlər. Hətta qayınanam plov bişirməyi öyrənmək istəyir".

"ÇOX İSTİQANLI VƏ GÜLƏRÜZDÜRLƏR"

Günay yoldaşının ailəsinin ona və ölkəmizə olan münasibətindən razıdır: "Bəzən deyirlər ingilislər soyuqqanlı millətdir. Amma Danielin ailəsinin belə olmadığını düşünürəm. Çox istiqanlı və gülərüzdürlər. Mənə qarşı çox diqqətcildirlər. Çox hörmət edirlər. Yeni nələrsə öyrənməyə çox açıqdırlar. Danielin ailəsini də Bakıda gəzdirmişəm. Düşbərə yeyiblər. Qayınanam o qədər bəyənmişdi ki, özü də bişirməyi öyrənmək istəyirdi. Danielin babası adət-ənənələrinə çox bağlıdır. Yalnız öz yeməklərini sevir. Ölkəmizə gəldikdə də ilk başda öz mətbəxlərini üstün tuturdu. Lakin yeməklərimizi daddıqdan sonra fikri tamamilə dəyişdi. Danielin babası ölkəmizi çox sevib. Hətta yenə gəlmək istəyir".

"MƏNİ AİLƏLƏRİ OLARAQ GÖRÜRLƏR"

Günayın fikrincə, ingilislərin bir qismi istiqanlı olsa da, bir qismi elə deyil: "Düşünürəm ki, Londonun özünəməxsus ab-havası var. Çox qeyri-adi şəhərdir. İngiltərədə ən sevdiyim gəzinti qəsrlərə getməkdir. Mənə görə dünyada ən mədəni xalq ingilislərdir. Sənə qarşı cüzi bir hərəkət etdikdə, adi yanından keçdikdə toxunsalar, dəfələrlə üzr istəyirlər. Qarşılarındakını tanımasalar da, çox hörmətlə yanaşırlar. Nəvazişlə, nəzakətlə danışırlar. Heç vaxt kimsə əcnəbidir deyə kənarlaşdırmazlar. Amma orada bəzi insanlar köklərinə çox bağlıdır. Düşünürlər ki, İngiltərə yalnız ingilislər üçündür. Özlərini daha çox sevirlər, üstün tuturlar. Bu tip soyuq insanlar əsasən yaşlı nəslin nümayəndələridir. Onlar da artıq çox azdır. Danielin babası və nənəsi də həmin insanlardandır. Amma məni hər kəsdən fərqli hesab edirlər. Məni ailələri olaraq görürlər".

METROPOLİTENDƏ YENİ DÖNƏM BAŞLAYIR

“Nizami” stansiyası “yaşıl” xətdə son dayanacaq olacaq. “Nizami”dən “28 May” stansiyasına və geriyə ekspres avtobuslar işləyəcək.



Bakı metropolitenində sərnişin axınının tənzimlənməsi, qatarların hərəkət intervalının optimallaşdırılması və ümumi xidmət keyfiyyətinin artırılması məqsədilə xətlərin ayrılması istiqamətində kompleks tədbirlərə başlanılıb. Bu barədə “Bakı Metropoliteni” QSC məlumat yayıb.

ÜÇ XƏTT FƏALİYYƏT GÖSTƏRİR

Hazırda metropoliten şəbəkəsində üç xətt fəaliyyət göstərir: “qırmızı”, “yaşıl” və “bənövşəyi”. Onlardan yalnız “bənövşəyi” xətt tam müstəqil rejimdə çalışır. “Qırmızı” və “yaşıl” xətlər isə “28 May” stansiyasında kəsişərək birgə infrastrukturdan istifadə edirlər. Bunun nəticəsində “qırmızı” və “yaşıl” xətt üzrə hərəkət edən qatarlar yalnız növbəli şəkildə - ən yaxşı halda 4 dəqiqəlik intervalla - platformaya daxil ola bilirlər. Onların birgə istifadə etdiyi hissədə isə interval iki dəqiqəyədək azalır. Bu vəziyyət, xüsusilə dörd dəqiqəlik intervalda işləyən stansiyalarda platformalarda sıxlığın artmasına və gözləmə müddətlərinin uzanmasına səbəb olur.

“YAŞIL” VƏ “QIRMIZI” XƏTLƏR AYRILIR

Mövcud şəraitdə problemin əsaslı və uzunmüddətli həlli - “yaşıl” və “qırmızı” xətlərin bir-birindən tam şəkildə ayrılması və hər birinin müstəqil fəaliyyət rejiminə keçməsidir. Bu məqsədlə ilk olaraq “Dərnəgül” elektrik deposunun tikintisinə start verilib. Bu depo “yaşıl” xəttin müstəqil texniki təminatını, digər xətlərdən tam ayrılaraq müstəqil fəaliyyət göstərməsini



və qatarların gecələməsini təmin edəcək.

Depo tikintisinin birinci mərhələsi başa çatdıqdan sonra növbəti əsas mərhələyə - “Cəfər Cabbarlı” və “Nizami” stansiyalarını birləşdirəcək yeni tunelin tikintisinə start veriləcək. 1976-cı ildən fəaliyyət göstərən mövcud tunel modifikasiya olunacaq, əlavə 200 metrlik yeni tunel tikilərək “Nizami” stansiyasını birbaşa “Cəfər Cabbarlı” stansiyası ilə birləşdirəcək. Bununla da “yaşıl” xətt müstəqil şəkildə işləməyə başlayacaq.

Birləşmə tunelinin tikintisi mürəkkəb geoloji şəraitdə həyata keçiriləcəyindən yerli və beynəlxalq mühəndislərin ilkin qiymətləndirmələrinə əsasən, işlərin təxminən 10-11 ay davam edəcəyi proqnozlaşdırılır. İşlərin təhlükəsiz, keyfiyyətli və mümkün qədər qısa müddətdə başa çatdırılması üçün bütün texniki resurslar səfərbər ediləcək.

ƏLAVƏ KEÇİD TUNELİ İNŞA OLUNACAQ

Bundan başqa, layihə çərçivəsində bu işlərə paralel şəkildə sərnişinlərin rahat keçidi üçün “28 May” və “Cəfər Cabbarlı” stansiyalarını birləşdirəcək əlavə keçid tunelinin tikintisi də planlaşdırılır.

Məhz bu tarixdən etibarən sərnişinlərin səfərlərində müəyyən dəyişikliklər baş verəcək. Tikinti müddətində “Nizami” stansiyası “yaşıl” xətt üzrə müvəqqəti son dayanacaq olacaq və bu səbəbdən:

- “Dərnəgül” istiqamətindən gələn sərnişinlər “Nizami” stansiyasında metronu tərk edərək “qırmızı” xəttə keçmək üçün alternativ ictimai nəqliyyatdan istifadə etməli olacaqlar;
- “Həzi Aslanov” istiqamətindən gələn sərnişinlər isə “28 May” stansiyasında metronu tərk edərək “yaşıl” xəttə keçmək üçün eyni qaydada alternativ ictimai nəqliyyatdan istifadə etməli olacaqlar.

“İçərişəhər” - “28 May” - “Həzi Aslanov” xətti üzrə qatarların hərəkəti əvvəlki qaydada davam edəcək və bu istiqamətdə heç bir məhdudiyyət gözlənilmir.

SƏRNİŞİN SIXLIĞI AZALACAQ

Görüləcək işlərin nəticəsində platformalarda sərnişin sıxlığı azalacaq və gözləmə müddəti qısalacaq. Bildiyiniz kimi, bu gün “28 May” stansiyasında həm “İçərişəhər”, həm də “Dərnəgül” istiqamətinə gedən qatarlara eyni platformada növbəli şəkildə minik həyata keçirilir. Bu isə sərnişin axınının bir-birinə mane olması, platformada sıxlıq və nizamsızlıq kimi problemlərə səbəb olur.

Xətlərin ayrılması ilə bu xaotik vəziyyət aradan qalxacaq və bununla da “28 May” stansiyasından yalnız “İçərişəhər” və “Həzi Aslanov” istiqamətinə, “Cəfər Cabbarlı” stansiyasından isə yalnız “Dərnəgül” və “Xətai” istiqamətinə gedən qatarlara minik mümkün olacaq.

Əgər sərnişinin son dayanacağı hazırda olduğu xətt üzrə yerləşmirsə, o zaman “28 May” və “Cəfər Cabbarlı” stansiyaları arasında keçid edərək digər xətdə səfərini rahatlıqla davam etdirə bilər.

SOCAR MOLDOVANIN ENERJİ ŞİRKƏTLƏRİ İLƏ ƏMƏKDAŞLIQ EDƏCƏK

Azərbaycan və Moldova arasında neft, qaz və neft məhsullarının ticarəti, bərpaolunan enerji, dekarbonizasiya sahələrinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb. “Report” bu barədə Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) istinadən xəbər verir.

Məlumata görə, müzakirələr şirkətin prezidenti Rövşən Nəcəfin Moldovanın Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri, Azərbaycan-Moldova iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri Vladimir Bolea ilə görüşündə baş tutub.

Görüşdə SOCAR ilə Moldovanın enerji şirkətləri arasında əməkdaşlıq münasibətlərinin önəmi qeyd olunub, əlaqələrin inkişafı imkanları nəzərdən keçirilib.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi, region ölkələri ilə qaz təchizatı sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 735
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

RƏNGLİ DAĞLAR, DAĞILAN YOLLAR, İNSANSIZ KÜÇƏLƏR

14 min əhalisi olan Xızı rayonunun küçələrində adam gözə dəymir, sanki hər kəs öz hücrəsinə çəkilib. Uzaqdan bahalı villalar, hasarlanmış ərazilər və baharın təzə-tər yaşıllığına bürünən kənd evləri vadi kimi görünür...

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Xızı rayonunu Bakıdan təxminən 100 km məsafə ayırır. Rayona yaxınlaşdıqca qarşıda gözəl mənzərələr açılır: yolu hər iki tərəfdən qucaqlayan Candy Cane – rəngli dağ silsiləsi əsrarəngiz mənzərə yaradır. Mütəxəssislər iddia edirlər ki, oxşar geoloji hadisəni ABŞ-nin "Ölüm vadisi"ndə görmək olur. Yuxarı qalxdıqca dağların rəngi qırmızıdan narıncıya dəyişir. Ölkənin şimal marşrutu üzrə - Xızıya, Altıağaca istirahətə gedən insanlar mütləq dayanır, bu rəngli dağlara qalxıb foto çəkdirirlər. Yol kənarında sıralanan maşın karvanı insanların bu gözəlliyə biganə olmadığını göstərir. Təsadüfi deyil ki, Xızı və ətraf ərazisi dünyanın çox ölkələrini gəzmiş, o cümlədən Qafqazda olmuş məşhur türk səyyahı Övliya Çələbinin "Səyahətnamə"sində də yer alıb. Xızı həm də Azərbaycan xalqına Cəfər Cabbarlı və Mikayıl Müşfiq kimi görkəmli ədəbiyyat adamları bəxş edib.

TARİXİ QƏDİMLİYƏ SÖYKƏNƏN YER

Xızının ərazi inzibati vahidi 1990-cı illərdən formalaşsa da, tarixi çox qədimlərə - Sasanilər dövrünə söykənir. Ərazidə IV-V əsrlərə aid tarixi abidələrin olması da bunu təsdiq edir. Səfəvilər İmperiyasının yaradıcısı I İsmayılın atası Şeyx Heydərin məzarının ərazidə olması da elə bu qədim tarixdən xəbər verir. Bundan əlavə, Xızının kəndlərində V əsrə aid Xızı qalasının uçuq hasarının daşlı qalıqları, Şirvanşahlar dövründə tikilən pirlər var.

Xızı zəngin landşaftı ilə də fərqlənir. Burada meşələr, hündürlüyü 2000 metrə qədər olan dağlar, Xəzər dənizi sahili və yarımsəhra düzənliklər var. Xızı həm də dağlar və dəniz arasındakı dəhliz ornitoloji turizmlə maraqlananlar üçün mühüm dayanacaqlardandır. Meşələri ilə məşhur olan Altıağac da Xızının ən çox səfər olunan məkanlarındandır.

NOVRUZ TƏTİLİ GÜNLƏRİNDƏ XIZIDA

Novruz tətili günlərində Xızıya bir günlük səyahətimiz də rayonun mədəni və tarixi məkanları, turizmi ilə yaxından tanışlıq və istirahət məqsədi daşıyırdı. Səfərimiz təkcə rayonun tarixiliyi və dağlarının əsrarəngiz rəngi ilə deyil, həmçinin bayram təəssüratlarımıza mane olan məqamlarla yaddaşımıza yazıldı... Təbii ki, biz də hamı kimi rəngli dağlarla fotosessiyanı qaçırmadıq. Daha sonra avtomobillə Xızının kəndlərinə doğru hərəkət etdikcə yollardakı qəribə sakitlik əhvalımıza təsirsiz ötüşmədi. Qəribə sakitlik var: 14 min əhalisi olan rayonun küçələrində adam gözə dəymir, sanki hərə öz hücrəsinə çəkilib. Uzaqdan 4-5 mərtəbəli villalar, hasarlanmış ərazilər və baharın təzə-tər yaşıllığına bürünən kənd evləri vadi kimi görünür...

KƏND TURİZMİNİN PROBLEMLƏRİ

Yol boyunca xidmət və gigiyenik səviyyəsi aşağı olan, ağzı günə dayanan lokal kafeləri keçib gedirik.

Xızıda kənd turizmindən demək olar ki danışmağa dəyməz. Düzdür, ayrı-ayrı sakinlər evlərinin kirayəsi ilə bağlı məlumatları internetdə yerləşdiriblər. Günlük evlərin qiyməti 90-100 manat arasında dəyişir. Amma kənd qonaq evləri o qədər də yayğın deyil. İnsanlar Altıağac istisna olmaqla bu əraziləri istirahət üçün seçmirlər. Səbəb isə sadədir: ərazidə turizm adına heç bir infrastruktur yoxdur. Məsələn, Xızıda çörək qıtlığı var. Evlərin qarşısında kiçik dükanlarda kənd məhsulları satılsa da, çörək tapılmır. "Rayonun mərkəzindəki marketlərdə tapa bilərsiniz. Yeganə çörək sexini keçən il AQTA bağladı. İndi sakinlər çörəyi evdə bişirirlər. Satışda çörək tapmaq çətin məsələdir", - deyə satıcı oğlan bildirdi. Qonaq olduğumuzu nəzərə alıb evindən bir çörək gətirdi. Digər çörəyi isə nahar yediyimiz restoranın əməkdaşı 2 manat müqabilində verdi.

Xızıya səyahət edən dostlardan biri rayonda ciddi ət çatışmazlığının olduğunu da bildirdi: "Burada quzular mələməmiş kəsilir, Xızıda ət tapılmır".

Əsas problemlərdən biri yol örtüyünün keyfiyyətsiz olmasıdır. Asfalta vurulan yamaqlar da narahatlığı aradan qaldırmır. Bu, rayona gələn turistlərə mane olan əsas problemlərdən biridir. Həmçinin kəndlərin əhalisinin xüsusən payız-qış aylarında rayon mərkəzinə gediş-gəlişində müəyyən çətinliklər yaradır. Xızı rayonunun Giləzi-Xızı (28 km) -Tıxlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Prezidentin Sərəncamına uyğun olaraq, 2019-cu ildə ərazidə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yenidənqurma işləri aparılsa da, hazırda asfalt örtüyü bərbad haldadır.

Dağların təbliğatı olsa...

Ölkənin nisbətən inkişaf edən turizm bölgələrində təmir və yeni yolların çəkilməsi üçün iş aparılsa da, buralarda bu proses görünür ki, çox ləng gedir. Nəticədə turistlərin çətin gedilən, hətta yarı yolda ilişilib qalan yerləri ziyarət etmək həvəsi qalmır. Turizm sektorunda işçilərin qeyri-peşəkarlığı, göstərilən xidmətin aşağı səviyyəsi də gözdən qaçmır. Zəif inkişaf etmiş yolkənarı xidmət sistemi – lokal kafe və restoranlar hələ də istirahət yerlərinə avtomobil və avtobusla gəlməyə hazır olan turistlərin sayına xidmət etmək üçün yetərli deyil.

Altıağac kimi istirahət mərkəzində yaşıl örtüyün, ağacların quruması da narahatlıq yaradan məqamlardandır. Rayonda özəl sektorun turizm istiqamətində fəaliyyəti də qənaətbəxş deyil.

Yerli və xarici turistlər əraziyə ən çox rəngli dağları ziyarət etməyə gəlirlər. Bunu turizmçi Vasif Yadigarov da təsdiq edir: "Ora gedən qonaqlar əsasən dağlıq hissə seçdikləri üçün əksəriyyəti razı qalır". Turizmçinin bildirdiyinə görə, hansı rayonda ən çox nə məşhurdursa - məsələn, yemək növü, meyvə, şirniyyat və s. - o bölgə üçün önə çəkilir. Xızının rəngli dağları kimi. Bu dağlara təşkil edilən infoturların qiyməti isə 29-35 AZN arasında dəyişir.

Təbii ki, hər bir ərazinin imici onun turistlər arasında nə qədər məşhur olacağını müəyyən etmək üçün çox vacibdir. Bir çox regionların öz ərazilərini turizm məkanı kimi tanıtmaq üçün səmərəli siyasəti isə təəssüf ki, yoxdur. Nəticə etibarı ilə potensial turistlər hansı yerləri ziyarət edə biləcəklərindən xəbərsizdirlər. Yaxşı təbliğatı olsa hamını heyran edə biləcək Xızının rəngli və nadir dağları kimi...

"PENN STATE"İN AZƏRBAYCANLI DAHİSİ

Nihad Həsən: "İlk dəfə atamla gəlmişdim, özümü bir möcüzənin içindəki kimi hiss edirdim. Amma sonra çətinliyini yaşamağa başladım. İlk altı ay bu baxımdan yaddaşıma həkk olunub. Çox yorğun idim, amma o qədər motivasiyam var idi ki, bu yorğunluq da mənə zövq verirdi".

SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

17 yaşında ABŞ-li professoru riyazi bilikləri ilə təəccübləndirib. Amma o, bu istedadını 15 yaşında dərk edib. Riyazi bilikləri ilə yaşıdlarından seçilsə də, uzun müddət bunun fərqində olmayıb. Ta ki, onu müəllimi kəşf edib 10-cu sinifdə riyaziyyat olimpiadasına göndərənə qədər... Məhz o olimpiadadan sonra karyera yolunu da seçib, bu yolla uşaqlıq arzusunu da reallaşdırıb, hətta ABŞ-li professoru da təəccübləndirməyi bacarıb.

Müsahibimiz Pensilvaniya Dövlət Universitetinin 2-ci kurs tələbəsi Nihad Həsəndir. Nihad bu universitetdə kompüter elmləri ixtisası üzrə təhsil alır.

"O FİLMLƏRƏ BAXDIQDA, BURADA TƏHSİL ALMAĞI XƏYAL EDİRDİM"

2006-cı ildə Bakıda anadan olub. Cəmi bir il SAT və TOEFl-a hazırlaşıb və imtahanda iştirak edərək yüksək bal toplayıb. Türkiyə, Almaniya və İsveçrədən qəbul alsa da, uşaqlıq arzusunu reallaşdıraraq ABŞ-ni seçir: "ABŞ məni uşaqlıqdan baxdığım filmlərlə özünə cəlb etmişdi. Hər dəfə o filmlərə baxdıqda burada təhsil almağı xəyal edirdim. İmtahan verdim və yüksək bal topladım. Universitetlərə qəbul aldıqda, ölkələr arasında ABŞ-dən başqa, Almaniya, İsveçrə, Türkiyə də var idi. ABŞ uzaq olduğu üçün valideynlərim orada təhsil almağımı istəmirdilər. Amma xəyallarımın da önünü kəsmədilər. Atamla ilk dəfə buraya gəldim, universitetimlə tanış oldum və ABŞ macəram başladı".

"SEÇİLDİYİMİN FƏRQİNDƏ DEYİLDİM"

Yuxarıda da qeyd etdiyimiz kimi, Nihad riyazi istedadını gec kəşf edib. Buna qədər o, əksər oğlan uşaqları kimi polis, vəkil olmaq istəyib: "İnsan özünü kəşf edənə qədər hər yaşda müxtəlif peşələrə maraq göstərir. Bu, məndə də elə idi. Amma 10-cu sinifdə məktəbimizin direktoru mənə karyera yolumu tapmaqda işıq oldu. O vaxta qədər olimpiadalarda iştirak etmirdim. Direktor məni otağına çağırdı və dedi ki, riyaziyyat olimpiadasında iştirak etməlisən. Düzü, riyaziyyat fənnində yaşıdlarımdan seçildiyimin fərqində deyildim. Direktor dedi ki, səndə həvəs də var, bacarıq da, niyə qatılmayasan? Heç bir xüsusi hazırlıq keçmədən olimpiadada iştirak etdim və riyaziyyat üzrə birinci yeri qazandım. Bundan sonra riyaziyyat biliklərimə etibar etdim və kompüter elmlərinə marağımı inkişaf etdirdim. Kompüter elmlərinin nəbzi riyaziyyat və alqoritmlərdir. "Penn State"in bu ixtisasında riyaziyyata xüsusi önəm verilir. Tələbələr diskret riyaziyyat, hesablama nəzəriyyəsi, statistika və ehtimal, cəbri strukturlar kimi fundamental kurslar keçərək proqramlaşdırma və alqoritmik düşünmə qabiliyyətlərini gücləndirirlər. Riyaziyyatda bacarığı olan tələbələr bu proqramda sürətlə fərqlənə və yüksək nəticələr göstərə bilərlər. Bu yolu seçdiyim, bacardığım və sevdiyim sahədə peşəkarlaşmağa çalışdığım üçün özümü şanslı hesab edirəm".

"TƏHSİL METODLARI ÇOX FƏRQLİDİR"

Nihad deyir ki, burada təhsil metodları fərqlidir: "Mən indi Azərbaycandakı dostlarımla dərsləri müzakirə edəndə bunun fərqinə varıram. Bura balaca şəhər kimidir və dərsləri, müəllimini, dərs saatını sən seçirsən. Professorları araşdırıb uyğun olanı seçirik. Bəzən başqa ölkədən olan professorların nitqini başa düşmək çətin olur, bunu dəyişə bilirik. "Penn State" Universiteti ABŞ-nin ən nüfuzlu ali məktəblərindən biridir və burada Kompüter Elmləri (Computer Science) ixtisası texnologiya sahəsində karyera qurmaq istəyənlərə imkanlar yaradır. Tələbə həyatı da çox aktivdir - texnologiya klubları, "hackathon" yarışları və sosial layihələr tələbələrin həm texniki, həm şəxsi inkişafına kömək edir".

> *"Riyaziyyatı tədris edən professorum dərsi izah edərkən bəzən mənimlə zarafatlaşırdı və geri dönüb soruşurdu ki, "Nihad, gör düz yazmışam?" Bu, məni çox sevindirirdi."*

"PROFESSOR "NİHAD, GÖR DÜZ YAZMIŞAM?" DEYİRDİ"

Nihad deyir ki, elə birinci kursda ABŞ-li professor onun riyazi bacarıqlarının fərqinə varıb, hətta yaşının az olmasına baxmayaraq, iş üçün onu məsləhət bilib: "Riyaziyyatı tədris edən professorum dərsi izah edərkən bəzən mənimlə zarafatlaşırdı və geri dönüb soruşurdu ki, "Nihad, gör düz yazmışam?" Bu, məni çox sevindirirdi. Daha sonra elə ilk semestr mənə proqramçı köməkçisi vəzifəsinə iş təklifi gəldi. Bu iş üçün həftədə 300 dollar ödəyəcəklərini demişdilər. Amma dərslərimə daha çox fokuslanmaq istədiyim üçün imtina etdim. Daha sonra öyrəndim ki, məni onlara riyaziyyatı tədris edən professorum məsləhət görüb".

Nihad ABŞ-də də riyazi bacarıqları ilə digər tələbə yoldaşlarından seçilib. Amma ikinci kursda vəziyyət dəyişib: "İllər keçdikcə, görürəm ki, riyaziyyat dəryadır və əslində, hələ heç nə bilmirəm. Hər yeni konsept öyrənəndə deyirəm ki, heç nə bilmirəm. Birinci kursda seçilirdim, rəqabət yox idi. İndi isə rəqabət var və üstünlüyü saxlamağa çalışıram".

"Hər şey yaxşıdır, amma..."

Təbii ki, 17 yaşlı tələbə üçün ailəsindən uzaq ölkədə tək yaşamaq asan olmayıb: "İlk dəfə atamla gəlmişdim, özümü bir möcüzənin içindəki kimi hiss edirdim. Amma sonra çətinliyini yaşamağa başladım. İlk altı ay bu baxımdan yaddaşıma həkk olunub. Çox yorğun idim, amma o qədər motivasiyam var idi ki, bu yorğunluq da mənə zövq verirdi. Yorğunluqdan başqa üzərimdə çox böyük məsuliyyət var. Yad ölkədə təkəm və artıq hər işimi özüm həll etməyə çalışıram. Ailəm də mənə görə çox narahat idi. Amma onların güvənini boşa çıxara bilməzdim. Ona görə də bütün çətinliklərin öhdəsindən tək gəlirəm. Burada insanlar, mədəniyyətlər çox fərqlidir. İnsanlar ilk baxışda özünü tək hiss edir, amma dost tapmaq çətin deyil. Hər çətinliyin öhdəsindən gəlməyə çalışsam da, yemək problemini həll etmək mümkün deyil. Azərbaycan yeməklərini heç nə əvəz etmir. Nə qədər ləzzətli yemək təqdim etməyə çalışsalar da, eyni dad deyil. Hər şey yaxşıdır, amma yeməklərimizin həsrətini çəkirəm".

"HƏDƏFİM ÖZ ŞİRKƏTİMİ QURMAQDIR"

Gələcək planlarına gəldikdə isə, həmsöhbətimiz deyir ki, növbəti hədəfi öz şirkətini qurmaqdır: "Başlanğıc üçün hansısa şirkətdə işləyəcəm. Amma planım orada öyrənib öz şirkətimi açmaqdır. Öz məhsulumu kəşf etmək üzərində çalışıram. Hətta atam da məndən tez-tez soruşur: "Kəşf etmisənmi?"

TEXNOLOJİ İNKİŞAF ONLARI DA "İŞSİZ" QOYDU

Atların və eşşəklərin sayında azalma müşahidə edilir. Bu məsələdə ekspertlərin fərqli fikirləri mövcuddur. Kimisi azalmanı normal qəbul edir, kimisi isə onları qorumalı olduğumuzu bildirir. Lakin bir həqiqət var ki, bu, çox qazanclı sahədir. Amma istifadə edə bilmirik.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda atların sayında azalma müşahidə edilib. 2025-ci ilin əvvəlində ölkəmizdə 49 442 baş at olub. Bu göstərici 2023-cü illə müqayisədə 3 600 baş azdır. Yəni bir ildə Azərbaycanda atların sayı təxminən yeddi faiz azalıb. 2024-cü ildə Azərbaycanda ən çox at saxlanılan iqtisadi bölgə Şəki-Zaqatala olub. Burada 6 876 baş at qeydə alınıb.

Qeyd edək ki, bundan əvvəl Azərbaycanda eşşəklərin sayında da azalma müşahidə edilmişdi. Cari ilin əvvəlinə olan məlumata görə, Azərbaycanda 12 709 baş eşşək var. 2008-2025-ci illər arasında ölkədə eşşəklərin sayı dörd dəfə azalıb. Belə ki, 2008-ci ildə Azərbaycanda 47,2 min baş eşşək olduğu halda, cari ilin əvvəlində bu rəqəm 12,7 min başa düşüb.

Maraqlıdır, hər iki heyvan növünün azalmasının səbəbləri nələrdir? Azalmanın qarşısının alınması üçün hansı tədbirlər görülə bilər və ya görülməlidir?

Məsələ ilə bağlı Kənd Təsərrüfatı Nazirliyindən bildirildi ki, artıb-azalmanı müəyyən etmək üçün reyestr aparılmalıdır: "Yəni heyvanlar identifikasiya olunmalıdır. Bu funksiyaların heç biri bizə aid deyil. Biz reyestr aparmırıq".

BİRİNİN ƏTİ, DİGƏRİNİN SÜDÜ

Fermer Rəhim İsayev isə rayonlardakı mövcud durumu belə izah edir: "Həm eşşəklərin, həm də atların sayının azalmasının əsas səbəblərindən biri son zamanlar kəndlərdə dağlardan və meşələrdə ağac kəsilməsinə sərt qaydaların tətbiq olunmasıdır. Kənd sakinləri qış tələbatları üçün ağac kəsib at və eşşəklə gətirirdi, odun satırdı. Əvvəllər at və eşşək kəndlərdə yük üçün istifadə edilirdi. Məsələn, Qaxın Malax, Qaşqaçay kəndlərində, demək olar, hər qapıda at, eşşək olardı. İndi isə kənddə demək olar eşşək və at yoxdur. Həmçinin kəndlərdə örüş, otlaq sahəsi də çox azdır. Olan ərazilərdə də inəyə və qoyuna daha çox üstünlük verilir, çünki onlar daha qazanclıdır".

R.İsayevin sözlərinə görə, həm atdan, həm də eşşəkdən çox faydalı məqsədlər üçün istifadə edə bilərik: "Bu sahə ilə məşğul olanlar yalnız atçılıq mərkəzləridir. Lakin atçılığın digər tərəflərini də inkişaf etdirməliyik. Məsələn, minilməyən atdan ət əldə etmək olur. At əti faydalıdır, proteinlə zəngindir. Bizdə çox yeyilməsə də, Azərbaycanda at ətini almaq istəyən əsas kütlə idmançılardır. Eşşək südü də çox faydalıdır. Bir litri 100 manatdan baha satılır".

"İNSANLARIN DA SEÇİMLƏRİ DƏYİŞİB"

Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov isə azalmanın səbəbinin texnologiyanın inkişafında və insanların bu heyvanlara olan ehtiyacının azalmasında görür: "Azərbaycanda eşşək və atların azalmasının müasir dövrün yaratdığı rahatlıqla bağlı olduğunu hesab edirəm. Bu heyvanlar uzun illər əsasən həyətlərdə təsərrüfat işlərinin görülməsi üçün saxlanılırdı. Həm də atlar nəqliyyat vasitəsi kimi də istifadə olunurdu. Kənd yerlərində insanlar hər hansı bir uzaq məsafəyə səfər edəndə atdan istifadə edirdilər. Bu gün isə avtomobil və digər texnikalara əlçatanlılıq artdığından həmin texnikalar atları və eşşəkləri əvəzləyir. Yəni insanların imkanları artdıqca, avtomobil və traktorlardan istifadənin həcmi də genişlənir. Məsələn, sovet dövründə bir kənddə sovxoz və ya kolxoza aid 2-3 traktor var idisə, bu gün hər kənddə bu texnikaların sayı kifayət qədər artıb. O cümlədən kəndlərdə minik avtomobilləri yox dərəcəsində idisə, bu gün demək olar ki, hər həyətdə avtomobil var".

Millət vəkilinin fikrincə, artıq rayonlarda yaşayan insanların da seçimləri dəyişib: "Atın və eşşəyin saxlanılması xüsusi zəhmət tələb edir. Həm də at və ya eşşəklə görülən işlərin məhsuldarlığı texnikadan kifayət qədər aşağıdır. Ona görə də atların və eşşəklərin sayı sürətlə azalır və onları müasir texnikalar əvəz edir".

Azər Badamov
Pərviz Heydərov

Hazırkı dövrün tələbi

A.Badamov düşünür ki, at və eşşəklərin sayının azalması hazırkı dövrün tələbidir: "Azalmanın qarşısını almaq mümkün deyil. Çünki şəxsi təsərrüfat sahiblərinə atın və ya eşşəyin saxlanılmasını heç kim məcbur edə bilməz. Azalmanın mənfi təsirləri yoxdur. Bu, sadəcə dövrün tələbidir".

Millət vəkilinin sözlərinə görə, azalmanın qarşısını ancaq atçılıq təsərrüfatları yaratmaqla almaq olar: "İnkişaf etmiş ölkələrdə atlardan əsasən imkanlı insanlar istirahət üçün istifadə edirlər. Ölkəmizdə də atların təsərrüfat işlərinin görülməsi üçün yox, istirahət və yarışlarda istifadə etmək üçün saxlanılması zamanı gələcək. Ölkəmizdə Qarabağ at cinsi məşhurdur. Bu atların saxlanılması üçün dövlətin dəstəyi ilə xüsusi təsərrüfat yaradılıb. Belə atçılıq təsərrüfatlarının sayını artırmaqla bahalı at cinsləri saxlamaq və həmin atları birjalarda satışa çıxartmaqla gəlir əldə etmək mümkündür. Bu məsələni dövlətlə yanaşı, özəl sektor da düşünməlidir. Çünki dünyada cins atların satışı biznesi çox gəlirli sahə hesab olunur".

"İXRACDAN QAZANC ƏLDƏ EDƏ BİLƏRİK"

İqtisadçı Pərviz Heydərov isə düşünür ki, örüş yerlərinin olmaması və saxlama xərclərinin artması digər heyvanlarda olduğu kimi at və eşşəklərin də sayına təsir edib: "Ölkəmizdə heyvandarlıqla bağlı vəziyyət heç də ürəkaçan deyil. At və eşşəklərin yemlə təmin edilməsi məsələsi olduqca çətindir. Saxlanma xərcləri artdığından sayın getdikcə azalması müşahidə edilir. Azalma müşahidə edilirsə, deməli bu heyvanlara tələb azalır".

İqtisadçı qeyd edir ki, Azərbaycan atları dünyada məşhurdur. Atçılıq sahəsində qədim dövrlərə gedib çıxan ənənələrimiz mövcuddur: "Bu at növlərinin ölkəmizə valyuta gətirməsi üçün yararlana bilərik. Elə ölkələr var ki, onlarda at əti məşhurdur. Atçılıq təsərrüfatlarını inkişaf etdirməklə həmin ölkələrə at əti ixrac edə bilərik. Düşünürəm ki, belə maraqlı və vacib sahənin məhv olmasına icazə verməməliyik".

UŞAQLAR ARASINDA KÜTLƏVİ VİRUS YAYILIB?

Hazırda yalnız mövsümə xas olan kəskin respirator virus infeksiyalarına yoluxma halları müşahidə edilir. Xəstəlik əsasən temperaturun yüksəlməsi, burun axması, boğaz ağrısı, öskürək və sair kataral simptomlarla özünü büruzə verir.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Qızdırma, ishal, ürəkbulanma, boğaz ağrısı... Son bir həftədə sosial şəbəkələrdə ölkə ərazisində uşaqlar arasında kütləvi virusun yayıldığı iddia olunur. Hətta bu virusun yeni və təhlükəli olduğunu vurğulayanlar da var. Valideynlər bildirirlər ki, virusa yoluxan uşağın hərarəti 3-4 gün yüksəlir, kəskin boğaz ağrısı müşahidə olunur və heç bir dərman təsir etmir.

Bəs bu virus həqiqətən kütləvi xarakter daşıyırmı? Ən əsası, iddia olunduğu kimi yeni virusdur, yoxsa mövsümi xəstəlik?

Bu suallarla mütəxəssislərə müraciət etdik.

"YOLUXUCU XƏSTƏLİKLƏRLƏ BAĞLI VƏZİYYƏT TAM SABİTDİR"

Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən "Kaspi" qəzetinə verilən məlumata görə, ölkə ərazisində yoluxucu xəstəliklərlə bağlı vəziyyət tam sabitdir: "Hazırda yalnız mövsümə xas olan kəskin respirator virus infeksiyalarına yoluxma halları müşahidə edilir. Xəstəlik əsasən temperaturun yüksəlməsi, burun axması, boğaz ağrısı, öskürək və sair kataral simptomlarla özünü büruzə verir".

"VAKSİNASİYA OLUNMASI VACİBDİR"

Qurumdan bildirilir ki, uşaqlar, hamilə qadınlar, xroniki xəstəliyi və ya immuniteti zəif olan şəxslər kəskin respirator virus infeksiyalarına daha çox həssasdırlar: "Onların mövsümi qrip əleyhinə vaksinasiya olunması vacibdir. Qripə qarşı peyvənd olunmaq istəyən şəxslər yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrinə müraciət edə bilərlər".

Həmçinin xəstəliklə mübarizə üçün xüsusilə mövsüm dəyişikliyi zamanı vitaminlərlə zəngin qida qəbul etmək, fiziki aktivliyi qorumaq, mövsümə uyğun geyinmək, immun sistemini gücləndirmək məsləhət görülür.

"ANTİBİOTİK MÜALİCƏSİ İLƏ SİMPTOMLARDA DƏYİŞİKLİK GÖRÜLMÜR"

Pediatr Nigar Mirzəyeva deyir ki, son zamanlar uşaqlar arasında viral infeksiyalara rast gəlinir. Mütəxəssisin sözlərinə görə, xüsusilə də qrip peyvəndi olunmayan uşaqlarda influenzanın A və B tipi müşahidə olunur: "Uşaqlarda uzun müddət davam edən yüksək hərarət, ümumi halsızlıq, iştahasızlıq şikayəti ilə bizə müraciət olunur. Bu şikayətlərlə yanaşı, digər viral infeksiyalarda görülən respirator əlamətlər - burun axıntısı, boğaz ağrısı, öskürək müşahidə edilir. Virus bəzən ağır keçdiyindən valideynlər antibiotik müalicəsinə başlayırlar. Təbii ki, virus infeksiyalarının müalicəsində antibiotikin rolu olmadığı üçün simptomlarda dəyişiklik görülmür".

Nigar Mirzəyeva

Aytən Ziyadova

"DİAQNOZUN 48 SAATDA QOYULMASI ÇOX VACİBDİR"

Pediatrın sözlərinə görə, diaqnozun 48 saatda qoyulması çox vacibdir: "Çünki ilk 48 saat ərzində qoyulan diaqnoz nəticəsində başlanılan antiviral müalicə effektli olur. Qorunma yolu isə hər zaman qrip peyvəndidir. Qrip peyvəndi əsasən oktyabr və noyabr aylarında vurulur ki, influenzanın epidemiyası olanda uşaqları qoruya bilək".

MÖVSÜMİ XƏSTƏLİKLƏR - ROTAVİRUS

Pediatr-infeksionist Aytən Ziyadova bildirdi ki, mövsüm dəyişikliyi ilə bağlı olaraq, uşaqlarda mövsümi xəstəlikləri görmək mümkündür. İnfeksionistin sözlərinə görə, son zamanlar müşahidə olunan virus, əsasən rotavirusdur: "Rotavirus, xüsusilə uşaqlarda mədə-bağırsaq infeksiyalarına səbəb olan, çox yüksək yoluxma qabiliyyətinə malik bir virusdur. Bu xəstəlik uşaqlarda güclü ishal, qusma və bədən temperaturunun yüksəlməsi ilə özünü göstərir. Əgər uşaqda qidalanmada problem yaranarsa və su itkisi baş verərsə, bəzən həyati təhlükə yarada bilər".

İLK BEŞ YAŞ RİSKLİDİR...

Rotavirusun yaranma səbəbinə gəldikdə, həkim bildirir ki, uşaqların xüsusilə ilk beş yaşında bu xəstəliyə tutulma riski daha yüksəkdir: "Rotavirus, Reoviridae ailəsinin üzvü olan bir virusdur. Virus tualet vasitəsilə və ya infeksiyalı şəxsin əşyalarına təmas nəticəsində yayılır. Rotavirus infeksiyasına yoluxmuş şəxs, xüsusilə ishal dövründə virusu çox miqdarda yayır. Virus, həmçinin infeksiya daşıyıcısı olan əşyalar və ya çirklənmiş su vasitəsilə də yayıla bilər".

Virusun simptomlarına gəldikdə isə, mütəxəssis vurğulayır ki, rotavirus infeksiyasının simptomları ümumiyyətlə 1-3 gün sonra meydana gəlir. Simptomlar güclü ishal, qusma, yüksək hərarətdir. İnfeksiya bədən temperaturunun 38°C və ya daha yüksək olmasına səbəb ola bilər. Həmçinin bu virus ürəkbulanma və halsızlıqla da özünü göstərir".

Virusdan qorunma yollarına gəldikdə isə, həkim bildirir ki, uşaqların əllərini yeməkdən əvvəl və tualetdən sonra yaxşıca yuyulduğuna əmin olmalıyıq. Vaksinasiya, təmiz mühit, sağlam qidalanma, sosial məsafə və maskalardan istifadə etməklə bu virusdan qorunmaq mümkündür".

TARİX, DİN VƏ TƏBİƏT

Mostar etnik cəhətdən müxtəlif, tarixi baxımdan füsunkar bir şəhərdir. Bosniya və Herseqovinanın beşinci ən böyük şəhəri, Balkanların ən məşhur turistik yerlərindən biridir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Mostar Balkanlarda mütləq görülməli olan yerlərdən biridir". Bosniya və Herseqovinaya səfər öncəsi səyahətsevərlər və turizmçilər bu füsunkar şəhəri görməyi tövsiyə edirlər. "Mostar etnik cəhətdən müxtəlif və tarixi baxımdan füsunkar bir şəhərdir. Ölkənin beşinci ən böyük şəhəri və Balkanların ən məşhur turistik yerlərindən biridir. Mostar tarix, din və təbiətdir", - deyə təcrübələrini bölüşürlər.

BARIŞIQ SİMVOLU

Şəhər Sarayevodan 125 km cənubda yerləşir. Paytaxtdan tarixi şəhərə avtobusla iki saat yarıma çatmaq olur. Mostara çatmağın başqa, daha mənzərəli, lakin ən yavaş yolu qatarladır, bu, üç saatdan çox vaxt aparır. Yol boyu bosniyalıların bütün həyat və yaşayışlarını ifadə edən kiçik və kasıb evləri, təsərrüfatları, Alp dağlarının möhtəşəm qarlı mənzərələrini seyr edə-edə mənzil başına nə vaxt çatdığının fərqində olmursan.

Tarixi Mostar şəhəri Neretva çayının dərin vadisi boyunca uzanır. 15-16-ci əsrdə Osmanlı imperiyasının sərhəd şəhəri, 19-20-ci əsrlərdə isə Avstriya-Macarıstan hakimiyyəti altında olan bir şəhər kimi yaşadığından Şərqlə Qərbin birləşdiyi yerdir.

Şəhərdə bütün attraksionlar mərkəzdə - Köhnə şəhərdə cəmləşib. Snayper qülləsi, Partizan Memorial Qəbiristanlığı, Müharibə fotoşəkillərinin sərgisi, Müslibeqoviçin evi, Mehmed Paşa Məscidi, Əyri körpü...

Mostarda qədim məscidlər, rəngarəng bazarlar və tarixi mülklər tərk edilmiş binalarla bir yerdə yaşayır. Şəhər təxminən 25 il əvvəl burada baş verən Bosniya müharibəsinin izlərindən hələ də yaxa qurtara bilməyib.

Mostar köhnə türk yaşayış evləri və qədim körpüsü ilə tanınır.

KÖHNƏ KÖRPÜNÜN HEKAYƏSİ

Məşhur memar Sinanın tələbəsi Xairudin tərəfindən qurulan körpü Balkan İslam memarlığının möhtəşəm nümunəsidir. 1990-cı illərdəki münaqişə zamanı tarixi şəhərin çox hissəsi və köhnə körpü dağıdılıb. Qədim şəhərdəki körpü və bir çox digər tikililər UNESCO tərəfindən yaradılan Beynəlxalq Elm Komitəsinin köməyi ilə yenidən qurulub və ya bərpa edilib. Körpünün bərpası 1997-ci ildə başlayıb və 2004-cü ildə başa çatıb. Layihənin dəyəri 15 milyon dollar olub.

Qəribədir ki, 19-cu əsrdə Mostara gələn Qərb səyyahları onun əsas cazibəsini "Roma körpüsü" adlandırırdılar. Belə gözəl körpünün bir Osmanlı memarı tərəfindən qurula biləcəyini təsəvvür edə bilmirdilər. "Şəhər sakinləri köhnə körpünün qalıqlarını çayın dibindən qaldırıblar, çatışmayan daş isə qədim karxanalardan çıxarılıb. Arxiv fotoşəkilləri sayəsində onun 1088 daş blokdan ibarət olduğu məlum olub", - deyə məlumatlı sakinlərdən biri dedi.

Hər gələn turist də Mostar turuna şəhərin unikal simvolu olan Köhnə körpüdən başlayır. Körpü həm də şəhərin iki müxtəlif hissəsini birləşdirdiyi üçün unikaldır: şərq tərəfdə məscidlərin olduğu müsəlman hissəsi, qərb tərəfində kilsələrin olduğu xristian hissəsi var. "Yeri gəlmişkən, bu körpü şəhərdə 17-ci əsrdə yaranmış ən qədim adət-ənənələrdən biri ilə bağlıdır. Ənənə körpüdən Neretva çayına tullanmaqdan ibarətdir".

HÖKMDARLAR VƏ QANUNLAR DƏYİŞDİ, LAKİN...

Mostarda tarixi abidələr çoxdur. 16-cı əsrdə tikilən Karadöz bəy məscidi Bosniyanın ən mühüm klassik Osmanlı məscididir. Osmanlı memarı Sinan tərəfindən layihələndirildiyi güman edilir və Bosniya milli abidəsi kimi siyahıya alınıb. Neretva çayının, Köhnə körpünün və yaxınlıqdakı dağların mənzərəsini seyr etmək üçün turistlər minarənin spiral pilləkənləri ilə qalxırlar.

Kuyunjiluk bazarı Mostarın Köhnə şəhərinin ürəyidir. Daş döşənmiş piyada küçəsi 16-cı əsrə aid tikililərlə bəzədilib, bəziləri parlaq çəhrayı rəngə boyanıb. Daş binaların içərisində ənənəvi ev tipli restoranlar və rəngli əl işləri satılan mağazalar var. Bu bazar gələnlərə Mostarın ənənələri, tarixi haqqında hər şeyi deyir. Turistlər bu bazarda alış-veriş edə, tarixi şəhərin ruhunu duya bilirlər. Yürüməkdən yorulanda yerli mətbəxin dadına baxmaq və dincəlmək üçün ətrafdakı kafelərə baş çəkirsən. Tarixi şəhər bütün Bosniya və Herseqovina mətbəxi kimi şərq və qərb ləzzətlərinin birləşməsi ilə xarakterizə olunur. Yerli mətbəxə ən çox türk, yunan və digər Aralıq dənizi mətbəxləri, eləcə də Avstriya-Macarıstan hakimiyyəti dövrünün təsirləri var. "Əsrlər keçdi, hökmdarlar və qanunlar dəyişdi, lakin Mostar üç dinin şəhəri olduğu üçün belə qaldı. Hətta müharibə də tarixi dəyişmədi. 15-ci əsrdə Osmanlı İmperiyası Bosniya və Herseqovinanı işğal etdiyi zaman ilk siyahıyaalma aparılıb. O zamanlar Mostar taxta körpünün yanında ticarət yolu boyunca yaranmış kəndə bənzəyirdi. Burada cəmi 19 ev var idi. Avstriya-Macarıstan dövründə artıq şəhərdə 16 min sakin yaşayırdı. Amma bir çox müsəlmanlar "Avropa evi"ni bəyənmədilər, köçüb getdilər", - deyə bazarın yaşlı satıcılarından biri danışır.

Mostar ətrafında gəzəndə sizi burada tərk edilmiş binalar əhatə edəcək - bu, ölkənin müharibədən sonrakı "mirası"dır. Bu baxımdan, bütün Bosniya və Herseqovinada olduğu kimi, Mostarda da "qaranlıq turizm" çox məşhurdur.

Əyri körpünün o biri başı xorvatların yaşadığı ərazidir. Bura fərqli, həm də nisbətən zəngin bir şəhər təsiri bağışlayır. Burada artıq Şərqdə deyil, Avropada olduğunu anlayırsan...

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
12 APREL ŞƏNBƏ 2025
www.kaspi.az

İngiltərə Premyer Liqasında sona yeddi tur qalmış çempionun kimliyi böyük ölçüdə bəllidir. “Liverpul” 31 matçda 73 xal toplayıb və ən yaxın izləyicisi “Arsenal”ı 11 xal üstələyir. Qalan yeddi matçda vəziyyətin dəyişəcəyi inandırıcı deyil.

BÖYÜK LİQALARDA GƏRGİN MÜBARİZƏ

Avropanın böyük liqalarında mövsüm sona yaxınlaşır. Artıq bəzi əhəmiyyətli suallara aydınlıq gəlib. Lakin hələ cavabını gözləyən qeyri-müəyyənliklər də mövcuddur. Bu yazıda mövsümün həlledici mərhələsində liqalardakı mövcud duruma nəzər yetirəcəyik.

“LİVERPUL”UN ƏZİCİ ÜSTÜNLÜYÜ

İngiltərə Premyer Liqasında sona yeddi tur qalmış çempionun kimliyi böyük ölçüdə bəllidir. “Liverpul” 31 matçda 73 xal toplayıb və ən yaxın izləyicisi “Arsenal”ı 11 xal üstələyir. Qalan 7 matçda vəziyyətin dəyişəcəyi inandırıcı deyil. Mövsümün sürprizi “Nottinqem Forest”dir. Nunu Eşpiritu Santunun yaratdığı möhkəm kollektiv bürünc medallara əsas iddiaçıdır. Son illərin çempionu “Mançester Siti” üçün mövsüm uğursuz alınır. Şəhərin digər təmsilçisi - “Mançester Yunayted” isə yenə də bərbad nəticələrlə azarkeşlərini üzür. Əgər şəhərlilər “Nyukasl” və “Çelsi” ilə Çempionlar Liqasına vəsiqə mübarizəsindədirsə, “qırmızı şeytanlar” ikinci “10-luq”dadır. “Sauthempton” isə artıq indidən Premyer Liqa ilə vidalaşıb və tarixdə buna ən erkən məruz qalan klub olub. “Lester Siti” və “İpsviç” də bu gedişlə tezliklə ona qoşulacaqlar.

FLİK EFFEKTİ

İspaniya La Liqasında isə açıq suallar hələ çoxdur. Çempionluq yarışı daha gərgindir. Əlbəttə, mübarizə adəti üzrə “Barselona” və “Real Madrid” arasında gedir. 30 oyuna 67 xal toplayan Kataloniya klubu liderdir, “kral klubu” dörd xal geri qalır. Üçüncü pillədəki “Atletiko” 60 xala sahibdir. La Liqada çempionluq mübarizəsinin son tura qədər davam edəcəyini ehtimal etmək olar. Son zamanlar “Real Madrid” hər nə qədər qeyri-stabil olsa da, asan təslim olmayacaq. Üstəlik, Çempionlar Liqasında “Arsenal”a ilk oyundakı 0:3 hesablı məğlubiyyətlə komandanın bu turnirdəki perspektivi sual altına düşüb və əsas hədəf La Liqadır. “Barsa” isə Hansi Flikin rəhbərliyi altında çox əzəmətli görünür. “Bavariya”da işlədiyi iki mövsüm ərzində bütün titullara yiyələnən alman mütəxəssis İspaniyadakı ilk mövsümündə də fərq hiss etdirməyi bacarıb. Komanda artıq Super Kuboku əldə edib, La Liqa və Çempionlar Liqasında da şanslar böyükdür.

“inter”, yoxsa “Napoli”?

İtaliya A Seriyasında da La Liqaya oxşar vəziyyətdir. Burada “İnter” və “Napoli” çempionluğa əsas iddiaçılardır. Milanlılar sona 7 tur qalmış 68 xalla ən yaxın izləyicisini üç xal üstələyirlər. “Nerazzuri” Çempionlar Liqasında da iddiasını davam etdirirsə, neapolluların bütün diqqəti liqaya yönəlib. “Atalanta”, “Bolonya”, “Yuventus”, “Latsio” və “Roma” həm üçüncü pillə, həm də ümumən Çempionlar Liqasına vəsiqə uğrunda yarışırlar. Zəif mövsüm keçirən “Milan” hazırda doqquzuncu pillədədir. Komanda ilk “altılığ”a düşməklə mövsümü xilas etmək istəyir.

PSJ MƏĞLUBİYYƏTSİZ ÇEMPİON OLACAQ?

Almaniya Bundesliqasında vəziyyət daha sadədir. Burada sona altı tur qalmış “Bavariya” ən yaxın izləyicisi “Bayer”i altı xal üstələyir. Komandanın 68 xalı var. Vensan Kompaninin yetirmələri bu mövsüm bütün göstəricilərdə rəqiblərini üstələyirlər. Xabi Alonsonun “Bayer”i isə fantastik mövsümdən sonra nisbətən zəifləmiş görünür. Çempionlar Liqasının son finalçısı “Borussiya” (Dortmund) uğursuz mövsüm keçirir. “Arılar” 41 xalla səkkizincidir. Komandanı Çempionlar Liqasına vəsiqə verən dördüncü pillədən beş xal ayırır.

Fransa Liqa 1-də PSJ-nin hegemonluğu davam edir. Komanda 28 turda 74 xal qazanıb. Beləliklə, Luis Enrikenin komandası sona altı tur qalmış çempionluğu rəsmiləşdirib. Ən yaxın izləyicisi “Marsel”i 22 xal üstələyən kollektiv Fransa çempionatı tarixində ən erkən çempionluq əldə edən komanda olub. 28 oyunun 23-də qələbə qazanan və 5 matçda heç-heçə edən PSJ qalan qarşılaşmalarda uduzmamaqla məğlubiyyətsiz çempionluq arzusundadır. Çempionlar Liqasında da işləri yolunda gedən komanda, nəhayət, çoxdankı xəyalını reallaşdırmaq niyyətindədir. “Monako”, “Marsel”, “Lion” kimi üst pillələrə iddialıların arasına bu mövsüm “Strazburq” da qoşulub. “Lill” və “Brest”in də Çempionlar Liqası şansları var.

SUPER LİQADA PİK SƏVİYYƏDƏ GƏRGİNLİK

Türkiyə Super Liqasında mübarizə hər tur daha da qızışır. Son səkkiz matç öncəsi “Qalatasaray” 71 xalla liderdir, üç xal az toplayan “Fənərbağça” ikincidir. Öz aralarındakı oyunlarda üstünlük “sarı-qırmızılar”da olduğu üçün hətta “bülbüllər” xalları bərabərləşdirsələr belə, yenə “Qalatasaray” çempion olacaq. Joze Mourinyonun yetirmələri həm özləri qələbə qazanmalı, həm də əsas rəqibin büdrəməsini gözləməlidirlər.

“QIZIL BUTS”U KİM “GEYİNƏCƏK”?

Liqaların ən yaxşı bombardirinə verilən “Qızıl buts” mükafatına əsas namizəd Məhəmməd Salahdır. “Liverpul”un misirli vingeri 27 qolla (54 xal) liderdir. Onu 25 qolla (50 xal) “Barelona”nın forvardı Robert Levandovski izləyir. Düzdür, “Sportinq”in hücumçusu Viktor Gökyereş daha çox - 31 qol vurub. Lakin Portuqaliya çempionatının əmsalı daha az - 1,5 olduğu üçün onun 46,5 xalı var və üçüncü pillə-dədir. Harri Keyn, Kilian Mbappe, Matteo Retequi, Usman Dembele də namizəd-liklərini davam etdirirlər.